10 sentyabr 2021 №68 (1845) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Ölkəmiz Özbəkistanda mədəni irslə bağlı beynəlxalq forumda təmsil olunacaq

Sentyabrın 13-dən 21-dək Özbəkistanın Daşkənd, Xivə və Nukus şəhərlərində "Mədəni İrs Həftəsi" keçiriləcək.

Həftə çərçivəsində sentyabrın 14-15-də qədim Xivə şəhərində UNESCO-nun iştirakı ilə "Mərkəzi Asiya dünya sivilizasiyasının ayrıcında" adlı Beynəlxalq mədəniyyət forumu təşkil olunacaq. Forumda Azərbaycan nümayəndə heyətinin də iştirakı nəzərdə tutulur.

səh. 2

## Türk Şurası ölkələrinin şirkətləri ərazilərin bərpasında iştirak etmək istəyir

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Baş katib Türk Şurasının bütün iştirakçı dövlətlərindən şirkətlərin Azərbaycanın azad edilmiş ərazilərinin bərpası prosesində iştirakda maraqlı olduqlarını bildirib, çoxsaylı iş adamının Bakıda keçiriləcək biznes foruma qatılacağını vurğulayıb.

səh. 2

## "Arşın mal alan" yenidən Çin səhnəsində




Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası növbəti dəfə Çin səhnəsindədir. Sentyabrın 16-da Lanfan şəhərindəki İpək Yolu Beynəlxalq İncəsənət Mərkəzində operetta konsert versiyada təqdim olunacaq.

Konsert Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Çin Xalq Respublikasındakı səfirliyimiz və Tiencin Şəhər Bələdiyyəsinin dəstəyi ilə hazırlanır.

səh. 8

## IV "Animafilm" Beynəlxalq Animasiya Festivalının qalibləri açıqlanıb

Festivalda 40 ölkədən 200-ə yaxın uşaqlar və böyüklər üçün animasiya filmləri nümayiş etdirilib.

Beynəlxalq müsabiqənin "Ən yaxşı tammetrajlı animasiya filmi", "Ən yaxşı qısametrajlı animasiya filmi", "Qısametrajlı animasiya filmi üçün ən yaxşı ssenari", "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi", "Ən yaxşı qısametrajlı tələbə animasiya filmi", "Ən yaxşı musiqili animasiya videosu" və s. nominasiyalar üzrə qalibləri seçilib.

səh. 3




## Respublika yaradıcılıq sərgisi təşkil olunacaq

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Qələbə hünəri" adlı respublika yaradıcılıq sərgisi keçiriləcək.

səh. 2

# İki il fasilədən sonra bir ilk – Bakıda beynəlxalq festival

## Bakı Caz Festivalına Hollandiya, Macarıstan, Türkiyə, Rusiya, İsrail, Almaniya, Lüksemburq və Gürcüstandan musiqiçilər qatılacaq

2020-ci ilin əvvəlində başlanan və hələ də davam edən COVİD-19 pandemiyasının məhdudiyyətləri səbəbindən ölkəmizdə beynəlxalq miqyaslı mədəni tədbir keçirilməyib. Sonuncu dəfə Azərbaycan paytaxtının ev sahibliyi ilə belə tədbir 2019-cu ilin payızında təşkil edilən Bakı Caz Festivalı olmuşdu... Bu ilin avqustunda Qəbələ Musiqi Festivalı bərpa edilsə də, yalnız yerli sənətçilərin iştirakı ilə məhdudlaşmışdı.

Nəhayət, mədəniyyət və incəsənət adına son iki ildə bir ilk – 10-18 sentyabr tarixində Mədəniyyət Nazirliyinin dəstəyi ilə XVI Beynəlxalq Bakı Caz Festivalı keçiriləcək.

İkiillik fasilədən sonra keçirilən builki Bakı Caz Festivalı Azərbaycanın qəhrəman şəhidlərinin əziz xatirəsinə, eləcə də çətin zamanların ağırlığı altında əyilməyən caz musiqisinin ruhuna həsr olunur.

Bu il Bakı Caz Festivalının həmçinin mövcud epidemioloji vəziyyət nəzərə alınaraq karantin qaydalarına uyğun şəkildə keçirilməsi ilə fərqlənəcək. Bütün çətinliklərə baxmayaraq, Bakı Caz Festivalı beynəlxalq səviyyədə qalır və dünyanın hər yerindən ən yaxşı musiqiçiləri öz ətrafına toplayaraq yüksək standartlara uyğun təşkil olunacaq.

Festivalın konsertləri "Beer Hall and Music Club" və "Art Tower Gallery"də, 18 sentyabrda qala-konsert isə "Shahdag Night Club"da keçiriləcək.

Bu il festivala Hollandiya, Macarıstan, Türkiyə, Rusiya, İsrail, Almaniya, Lüksemburq və Gürcüstandan qruplar qatılacaq. Festivalda xarici həmkarları ilə birlikdə azərbaycanlı cazmenlər – Əməkdar artistlər Rain Sultanov, İsfar Sarabski, musiqiçilər Elbəy Məmmədzadə, Elvin Bəşirov, Diana Hacıyeva, Əfqan Rəsul, Nicat Aslanov və başqaları çıxış edəcəklər.

Bakı Caz Festivalı ənənəvi olaraq uzun illərdir keçirilən və artıq istedadlı musiqiçilər nəslini yetişdirən caz ifaçıları yarışmasına xüsusi diqqət yetirir. Builki festival çərçivəsində də gənc istedadlar üçün müsabiqə təşkil olunacaq.

Sentyabrın 10-da festival çərçivəsində azərbaycanlı rəssamlar Hüseyn Haqverdiyev, Bəhram Xəlilov, Rüstəm Hüseynov, Arif Quluzadə "İmprovised by İndustry" layihəsini təqdim edəcəklər. Sentyabrın 17-də isə dizayner Leyla Əhmədovanın moda nümayişi – caz mövzusunda tamamilə yeni bir kolleksiyası təqdim olunacaq.

11 və 12 sentyabr tarixlərində "İncəsənət qülləsi" ("Art Tower") qalereyasında caz-kino proqramı – keçən əsrin əfsanəvi filmlərinin nümayişi olacaq.

Bu il də Bakı Caz Festivalının ayrılmaz hissəsi olaraq ustad dərsləri və cem-seyşnlər (jam-session) təşkil ediləcək.

Qeyd edək ki, Bakı Caz Festivalı axırıncı dəfə 2019-cu ilin 18–27 oktyabr tarixində "Daha çox caz, daha çox intellekt" şüarı altında keçirilmişdi.




# Nizami Gəncəvinin 880 illiyi doğma şəhərində təntənə ilə qeyd edilib

Sentyabrın 9-da Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev meydanında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş ümumşəhər tədbiri keçirilib.

Tədbirdə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Gürcüstanın Gəncədəki baş konsulu Nikolos İaşvili, Gəncədən millət vəkilləri Naqif Həmzəyev, Müşfiq Cəfərov, Pərvin Kərimzadə, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, AMEA Gəncə Bölməsinin rəhbəri Fuad Əliyev, şəhərin təhsil, gənclər və idman idarələrinin rəhbərləri, müəssisə və təşkilatların, ictimaiyyətin nümayəndələri iştirak ediblər.



Yubiley tədbirinin iştirakçıları əvvəlcə Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Uşaq incəsənət və Uşaq rəssamlıq məktəblərinin, Gəncə Dövlət Rəsm Qalereyasının, Gəncə Dövlət Kukla Teatrının, eləcə də şəhər misgərlərinin nümayiş etdirdikləri sərgi ilə tanış olublar.

davamı səh. 3-də

## Moskvanın 874 yaşına Bakıdan sənət və bar-bərəkət sovqatı

Sentyabrın 11-12-də Moskvadakı Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin (XTNS) "Azərbaycan" pavilyonunda "Moskva-Bakı: qəlbləri qoşa döyünür" adlı tədbir keçiriləcək. Tədbir Moskvanın əsasının qoyulmasının 874-cü ildönümünə həsr olunmuş ənənəvi bayram – "Şəhər günü" çərçivəsində təşkil ediləcək.

Tədbirin qonaqları sərgi-yarmarka zonasında Azərbaycan məhsulları ilə tanış olmaq, məşhur Azərbaycan çayının dadına baxmaq, milli üslubda tərtib olunmuş foto zonasında yaddaqalan fotolar çəkdirmək imkanı əldə edəcək, Bakının siluetlərinin və Moskvanın görməli yerlərinin rəsmlərini çəkmək bacarıqlarını sınaqdan keçirə biləcəklər.

Milli xoreoqrafiya kollektivlərinin ifasında Azərbaycan rəqsləri və xalq çalğı alətlərində canlı musiqi heç bir qonağı laqeyd qoymayacaq. Azərbaycanın paytaxtı və respublikanın tarixi yerləri üzrə virtual tur bütün sərhədləri qısa müddət ərzində silmək və qonaqpərvər ölkəmizdə olmaq üçün unikal şans olacaq.



# 773 milyon insan yazıb-oxumağı bilmir

## İCESCO Beynəlxalq Savadlılıq Günü münasibətilə bəyanat yayıb

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (İCESCO) hər il sentyabrın 8-də qeyd edilən Beynəlxalq Savadlılıq Günü münasibətilə bəyanat yayıb.

Bəyanatda qeyd olunur ki, İCESCO bütün dünyada, o cümlədən İslam ölkələrində savadsızlığın tamamilə aradan qaldırılması, təhsilin ən müasir standartlar səviyyəsində təşkili istiqamətində müxtəlif layihələr həyata keçirir.

"Təəssüf ki, savadsızlıq hələ də bir problem olaraq qalır. Qlobal miqyasda 773 milyon gənc və yaşlı insan, o cümlədən 617 milyon uşaq yazmağı və oxumağı bilmir. Yoxsul ölkələrdə, silahlı münaqişə zonalarında əhalinin bir hissəsi təhsildən məhrumdur. Bundan başqa, COVİD-19 pandemiyası ilə əlaqədar bir çox ölkələrdə təhsil müəssisələri fəaliyyətini dayandırıb. Onların bəzilərində uşaq və gənclərin distant təhsil almaq imkanları yoxdur", – deyə bəyanatda vurğulanır.

Təşkilat diqqətə çatdırır ki, qadınların və qızların təhsilə daha çox cəlb edilməsi məqsədilə İCESCO tərəfindən uyğun layihələr həyata keçirilir, habelə 2021-ci il müsəlman dünyasında "Qadın İli" elan olunub. Üzv ölkələrdə bu proseslərin sürətləndirilməsinə nail olmaq məqsədilə İCESCO tərəfindən qadınlar və qızlar arasında təhsilin inkişafı üzrə QHT-lər və vətəndaş cəmiyyətləri arasında pilot layihələrin müsabiqəsi elan edilib. BMT-nin dayanıqlı inkişaf hədəflərinə çatmaq üçün bütün dünyada, o cümlədən İslam ölkələrində rəqəmsal inklüziv təhsilin inkişafı diqqət mərkəzində olmalıdır.

mövzunun davamı səh. 8-də

## "Çələbi" xalçasının kəsimi keçiriləcək



səh. 2

## "Azərbaycanın məhv edilmiş mədəni irsi və minalanmış əraziləri ilə bağlı yeni hesabat hazırlayacağıq"

səh. 3

## Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində anım konserti



səh. 3

## Ölkəmiz Özbəkistanda mədəni irslə bağlı beynəlxalq forumda təmsil olunacaq

Sentyabrın 13-dən 21-dək Özbəkistanın Daşkənd, Xivə və Nukus şəhərlərində "Mədəni İrs Həftəsi" keçiriləcək.

Həftə çərçivəsində sentyabrın 14-15-də qədim Xivə şəhərində UNESCO-nun iştirakı ilə "Mərkəzi Asiya dünya sivilizasiyasının ayrıcında" adlı Beynəlxalq mədəniyyət forumu təşkil olunacaq.

Tədbirdə sosial və humanitar elmlər üzrə alimlər, filosoflar, tarixçilər, şərqşünaslar, linqvistlər, sənətşünaslar, antropoloqlar, əlyazmalar və miniatürlər üzrə ixtisaslaşmış mütəxəssislər iştirak edəcək.

Dünyanın 46 ölkəsindən 350-dən artıq nümayəndənin qatılacağı forumda Azərbaycan nümayəndə heyətinin də iştirakı nəzərdə tutulur.

"Mədəni İrs Həftəsi" çərçivəsində "Özbəkistanın mədəni irsi – yeni Renessansın bünövrəsi" adlı konqres də keçiriləcək.

## Türk Şurası ölkələrinin şirkətləri ərazilərin bərpasında iştirak etmək istəyir

Sentyabrın 9-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Baş katibi Bağdad Amreyevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Görüşdə Türk Şurasının gündəliyində duran məsələlər, qarşıdakı tədbirlər, xüsusilə də cari ildə İstanbulda keçiriləcək zirvə görüşünə hazırlıq məsələləri ətraflı müzakirə edilib.

Bağdad Amreyev Bakıda keçiriləcək Türk Şurası ölkələrinin iqtisadiyyat nazirlərinin görüşü və biznes forumunun gündəliyi barədə məlumat verib. Baş katib Türk Şurasının bütün iştirakçı dövlətlərindən şirkətlərin Azərbaycanın azad edilmiş ərazilərinin bərpası prosesində iştirakda maraqlı olduqlarını bildirib, çoxsaylı iş adamının Bakıda keçiriləcək biznes foruma qatılacağını vurğulayıb.

Nazir Ceyhun Bayramov Türk Şurasının görüşünə və biznes forumuna uğurlar arzulayıb. Azərbaycanın Türk Şurası çərçivəsində əməkdaşlığa yüksək önəm verdiyi vurğulanıb.

## "Qələbə hünəri" respublika yaradıcılıq sərgisi keçiriləcək

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Qələbə hünəri" adlı respublika yaradıcılıq sərgisi keçiriləcək.

2020-ci ilin Vətən müharibəsində şanlı Qələbənin ildönümü münasibətilə təşkil edilən sərgi noyabrın 6-da Xətai Sənət Mərkəzində açılacaq.

Azərbaycan rəssamları bu tarixi Zəfərdən ilham alaraq sənət əsərləri yaradırlar. Sərgi Azərbaycanın, xüsusən də işğaldan azad olunmuş ərazilərin təbiət gözəlliklərini tərənnüm etmək, Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığı təsviri sənət əsərlərində nümayiş etdirmək məqsədi daşıyır.

Sərgidə 18 yaşdan yuxarı yerli və xarici rəssamlar, heykəltəraşlar, qrafika və akvarel ustaları əsərləri ilə iştirak edə bilər.

İştirak etmək üçün işlərin fotoları qelebehuneri@gmail.com elektron ünvanına göndərilməlidir. İşin keyfiyyətli fotosu çəkilməli (2-5MB), müəllifin ad və soyadı, işin adı, ölçüsü qeyd olunmalıdır.

Sərgidə ümumilikdə 100 əsər nümayiş ediləcək. Hər iştirakçı sərgiyə ən çox 3 əsərini təqdim edə bilər, lakin seçim əsasında sərgidə bir əsər nümayiş olunacaq.

Əsərlərin fotosunun son qəbul tarixi 10 oktyabrdır.

Əsərlər təşkilat komitəsinin formalaşdırdığı və adları qabaqcadan elan olunacaq münsiflər heyəti tərəfindən seçiləcək. Sərgidə iştirak edəcək rəssamların siyahısı oktyabrın 15-də Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin rəsmi saytı və sosial media hesablarında paylaşılacaq.

Seçilmiş əsərlər oktyabrın 30-dək Xətai Sənət Mərkəzinin 3-cü mərtəbəsindəki sərgi zalına təhvil verilməlidir.

## Gələn ilin dövlət büdcəsinin gəlir və xərcləri üzrə proqnozlar açıqlanıb

### Büdcə layihəsi sentyabrın 15-dək Nazirlər Kabinetinə təqdim ediləcək

2022-ci ildə Azərbaycanın dövlət büdcəsinin gəlirləri 26 milyard 407 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da ümumi daxili məhsulun (ÜDM) 32,5%-ni təşkil edəcək.

Bu barədə Maliyyə Nazirliyi məlumat yayıb. Məlumata əsasən, 2022-ci il üçün büdcə gəlirlərinin proqnozlaşdırılan həcmi 2021-ci ilin təsdiq edilmiş göstəricisinə nəzərən 3,8% çoxdur. Gəlirlərin 52,4%-i neft sektorunun, 47,6%-i qeyri-neft sektorunun payına düşəcək.



Neft sektoru üzrə büdcə gəlirlərinin 85,7%-ni Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert, 14,3%-ni isə vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmaların təşkil edəcəyi proqnozlaşdırılır. Vergi və gömrük sistemində islahatların davam etdirilməsi və pandemiyanın təsirlərinin azalması 2022-ci ildə qeyri-neft sektoru üzrə müvafiq daxilolmaların artımını 2021-ci ilin təsdiq olunmuş göstəricisinə (Mərkəzi Bankın mənfəətindən ayırmalar və Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert çıxılmaqla) nəzərən 1 milyard 844 milyon manat və ya 19,3% proqnozlaşdırmağa imkan verir.

2022-ci ildə dövlət büdcəsinin xərcləri 2021-ci ilin təsdiq edilmiş göstəricisinə nəzərən 1,5% artıq olmaqla 28 milyard 974 milyon manat məbləğində (ÜDM-in 35,6%-i) proqnozlaşdırılıb. Xərclərin 68,7%-ni cari xərclər, 24,7%-ni əsaslı xərclər, 6,6%-ni isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər təşkil edir.

Qeyd olunan dövrdə əsasən əməyin ödənişi və sosial ödənişlərin artması hesabına cari xərclərin əvvəlki ilin proqnoz göstəricisi ilə müqayisədə 10,5 %-lik artımı, əsaslı xərclərin 14,1%, dövlət borcuna xidmətlə bağlı xərclərin isə 13% azalması proqnozlaşdırılır.

Beləliklə, 2022-ci ildə dövlət büdcəsinin kəsirinin 2021-ci ilin təsdiq edilmiş göstəricisindən 17,6% az olmaqla 2 milyard 567 milyon manat olacağı proqnozlaşdırılır ki, bu da ÜDM-in 3,2%-ni təşkil edəcək. Kəsir vahid xəzinə hesabının qalığı (45,2%), daxili və xarici borclanma (27,3%), layihə maliyyələşdirilməsi əsasında cəlb edilən kreditlər (23,1%) və özəlləşmədən daxilolmalar (4,4%) hesabına maliyyələşdiriləcək.

Maliyyə Nazirliyindən o da bildirilib ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri cari ilin sentyabr ayının 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, sentyabr ayının 25-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim ediləcək.

2022-ci il üzrə dövlət büdcəsi haqqında qanun layihəsi ona əlavə edilmiş digər sənədlərlə birlikdə oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 2-ci bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə və təsdiqinə təqdim ediləcək.

## Terrorizmlə mübarizə üzrə sammitdə Ermənistanın Azərbaycana qarşı əməllərindən danışılıb

Milli Məclisin sədri Sahibə Qafarova sentyabrın 9-da Avstriyanın paytaxtı Vyanada keçirilən Terrorizmlə mübarizə üzrə I Qlobal Parlament Sammitində çıxış edib. Sahibə Qafarova çıxışında 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra terrorizmin qarşısının alınmasının və onunla mübarizənin dövlətlərin gündəliyində dayanan ən vacib məsələlərdən birinə çevrildiyini diqqətə çatdırıb.




Bildirib ki, beynəlxalq ictimaiyyət hazırkı mərhələdə təhlükəsizliyə təhdid və əsas insan hüquqlarının kobud surətdə pozulması olan terrorizmlə mübarizəyə paralel olaraq, BMT çərçivəsində qəbul edilmiş beynəlxalq sənədlərdə effektiv antiterror tədbirlərinin əsas elementlərdən biri kimi qəbul edilmiş terror qurbanlarının hüquqlarını tam nəzərə almalıdır.

Milli Məclisin sədri əlavə edib ki, parlamentlər terror qurbanlarına mümkün olan ən böyük yardım və dəstəyin göstərilməsi üçün təsirli mexanizmlərin formalaşmasında əsas rol oynayaraq, bu məsələnin həllində hökumət, vətəndaş cəmiyyəti təşkilatları, media və özəl sektor arasında əməkdaşlığı yaradan inklüziv qanunlar hazırlamalıdır.

Terror qurbanlarına dəstəklə bağlı müvafiq qanun və qaydalar BMT-nin Qlobal Terrorla Mübarizə Strategiyasında və terror qurbanlarına yardım üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə dair qətnaməsində təsbit edilmiş prinsip və öhdəlikləri özündə əks etdirməlidir.

Azərbaycanın xarici döyüşçü terrorçular, terrorizmin maliyyələşdirilməsi, terrorizm, zoraki separatizm, ekstremizm və digər qanunsuz fəaliyyətlər arasındakı əlaqənin aradan qaldırılması da daxil olmaqla, bütün formalarda və təzahürlərdə terrorçuluğa qarşı mübarizədə ardıcıl dəstək göstərdiyini xatırladan Sahibə Qafarova vurğulayıb ki, ötən il 44 günlük müharibə Ermənistanın Azərbaycana qarşı fəal şəkildə istifadə etdiyi zoraki separatizm, terrorizm və ekstremizm arasındakı əlaqəni açıq şəkildə göstərib.

Spiker diqqətə çatdırıb ki, Azərbaycana qarşı törədilən terror aktlarının qurbanları ilə bağlı xüsusi şərtlər nəzərə alınmaqla, ölkəmizdə terror qurbanlarının ehtiyaclarını qarşılamaq üçün geniş və davamlı dövlət və qeyri-hökumət yardımı mövcuddur. Azərbaycanın bu sahədəki siyasəti terror qurbanlarının və onların ailələrinin həyatlarının sürətlə normallaşmasına yönəlib.

## Qarabağa kitabla gedirik...

### Aksiyaya "Karabakh is Azerbaijan!" platforması da qoşulub

Məlum olduğu kimi, bu ilin əvvəlindən Mədəniyyət Nazirliyinin və Milli Kitabxananın birgə təşəbbüsü ilə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yaradılacaq kitabxanaların fondlarına dəstək məqsədilə aksiya həyata keçirilir. Ötən müddətdə kitab toplama aksiyasına müxtəlif təşkilatlar, eləcə də mədəniyyət, elm xadimləri, yazarlar qoşulub.

Diaspora İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə yaradılan "Karabakh is Azerbaijan!" Milli Platforması da ölkəmizin gənclərini, eləcə də xaricdə yaşayan həmvətənlərimizi bu istiqamətdə fəaliyyətə təşviq etmək üçün yeni layihəyə başlayıb.



Dövlət Komitəsindən verilən məlumata görə, "Karabakh is Azerbaijan!" Milli Platformasının təşəbbüsü ilə kitablar könüllü şəkildə toplanacaq və çeşidlənəcək. Daha sonra kitablar işğaldan azad olunmuş rayonlarda açılacaq kitabxanalara hədiyyə ediləcək.

Platformanın koordinatoru Bəxtiyar Rəhimov bildirib ki, artıq Azərbaycanda, həmçinin Türkiyədə və Birləşmiş Ərəb Əmirliklərində fəaliyyət göstərən fəallar 1000-dən artıq kitab toplayıblar.

## "Çələbi" xalçasının kəsimi

Sentyabrın 10-da Azərbaycan Milli Xalça Muzeyində Qarabağın "Çələbi" xalçasının qədim ənənələrə uyğun şəkildə hanadan kəsimi mərasimi keçiriləcək.

Muzeyin Ənənəvi texnologiya şöbəsində toxunan bu xalça 2019-cu ildə Bakıda UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində keçirilən "Azərbaycan mədəni irsi Luvr Muzeyində" adlı sərgidə nümayiş etdirilən unikal xalçanın tam replikasıdır.

Xalçada ara sahənin mərkəzində "Çələbi" xalçalarına xas eyni quruluşlu iki göl elementi verilib. Qarabağ xalçaçılığında geniş yayılmış "Günəş" və ya "Çələbi" adlı göl elementi hər tərəfə şüalarını yayan günəşin rəmzi olub, həm də ilahi nura işarədir.

## O əvəzolunmaz muzey əşyaları haradadır?

### Rza Diqqəti ermənilərin talan etdiyi Kəlbəcər muzeyindən fotolar paylaşıb

Dünya şöhrətli fotojurnalist Rza Diqqəti (Reza Deqati) erməni vandalları tərəfindən talan edilmiş Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyindən fotolarını "İnstagram" səhifəsində paylaşıb.



O, paylaşımında yazıb: "Kəlbəcər muzeyi əsrlər boyu Kəlbəcərin qiymətli daşları və qızılı ilə yaradılan nadir heykəlləri və əsərləri ilə məşhur idi. 1993-cü il aprelin 2-də erməni qüvvələri şəhəri ələ keçirdi. Əhaliyə çıxmaq üçün 10 saat vaxt verdilər. Bir çoxu ayaqqabı olmadan belə piyada 3480 metr hündürlüyündə dağı keçərək qarda ayaqlarını itirdi və ya öldü. Şəhər kül oldu, yaşamaq üçün bir neçə ev saxlanıldı. Erməni qüvvələri 2020-ci ilin noyabrında məğlub olduqdan sonra Azərbaycana onlara Kəlbəcəri tərk etmək üçün 15 gün vaxt verdi və onlar istədiklərini götürə bildilər.

Ayrılmazdan əvvəl isə hətta evləri yandırdılar, ağacları kəsdilər, heyvanları öldürdülər və Ermənistana getdilər. Qurtuluşdan sonra şəhərə gələndə bir çox başqa görməli yerlər arasında məşhur muzeyi axtardım. Muzeyi tamamilə yer üzündən sildiklərini gördükdə isə kədərləndim və şoka düşdüm... Bütün qiymətli əsərləri götürmüşdülər. Yalnız bir neçə heykəl qalmışdı ki, yəqin ki, onları da ağır olduqları üçün aparmamışdılar. O əvəzolunmaz muzey əşyaları haradadır? Bütün Qarabağ muzeylərindən, tarixi abidələrdən və evlərdən talan edilmiş bütün bu əsərlərin və minlərlə digər əşyaların siyahısı sovet arxivlərində mövcuddur.

İnanıram ki, UNESCO bu mövzuda müəyyən işlər görəcək".

## "Qarabağın məcburi köçkünləri. Torpağın dəyəri"

### Argentina telekanalında azad olunmuş ərazilərimiz haqqında sənədli film

Argentinanın onlayn xəbər portalı və televiziya kanalı kimi fəaliyyət göstərən "Realpolitik"in çəkiliş qrupu tərəfindən Azərbaycanın işğaldan azad edilmiş ərazilərindən hazırlanan sənədli film bu ölkənin ictimaiyyətinə təqdim edilib.

Azərbaycanın Argentinadakı Səfirliyindən bildirilib ki, "Qarabağın məcburi köçkünləri. Torpağın dəyəri" adlı filmdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün tarixi kökləri barədə ümumi məlumat verilib. Həmçinin Ağdam və Füzuli rayonlarında işğal müddətində Ermənistan tərəfindən dağıdılmış tarixi və mədəni abidələr, dini məbədlərdən görüntülər təqdim edilib.

İzləyicilər, eyni zamanda 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən münaqişə zonasından uzaqda yerləşən Gəncə şəhərinin mülki əhalisinin sıx yaşadığı məntəqələrinin ağır artilleriyadan atəşə tutulması, insan tələfatı və mülki infrastrukturların dağıdılması barədə məlumatlandırılıb.

Diqqətə çatdırılır ki, hazırda Azərbaycan hökumətinin əsas məqsədi işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və yenidən bərpası, məcburi köçkünlərin doğma torpaqlarına geri dönməsini təmin etməkdir. Filmdə məcburi köçkünlərlə müsahibələr də təqdim edilir.

# Nizami Gəncəvinin 880 illiyi doğma şəhərində təntənə ilə qeyd edilib







*əvvəli səh. 1-də*

Tədbirdə Vətən uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla anılıb.

Çıxış edənlər Nizami Gəncəvinin zəngin yaradıcılıq irsi barədə danışıblar. Bildirilib ki, Nizami bütün ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Gəncədə yaşayıb, dünya ədəbi-fəlsəfi düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini burada ərsəyə gətirib. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoyub. Nizaminin əsərlərinə çəkilən və bu gün ən məşhur kitabxana və muzeyləri bəzəyən miniatürlər Şərqdə incəsənətin inkişafına təkan verib.

Rəsmi hissədən sonra Gəncə Dövlət Dram Teatrının təqdimatında "Xəmsə" ədəbi-bədii kompozisiyası nümayiş etdirilib. Kompozisiyanın bədii rəhbəri Əməkdar mədəniyyət işçisi Əli Qasımov, rejissoru Elşad Əhmədovdur. Nizami obrazını Xalq artisti Alim Məmmədov canlandırıb.

Gəncə Dövlət Filarmoniyası Xalq çalğı alətləri ansamblının (bədii rəhbər – Əməkdar artist Elçin Elçiyev) hazırladığı konsert proqramı dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" ilə başlayıb. Konsertdə Nizaminin sözlərinə yazılmış mahnı və romanslar, Azərbaycanı, Gəncəni vəsf eləyən mahnılar səsləndirilib. Xalq artisti Sevinc İbrahimova, Əməkdar artistlər Kəmalə Tağızadə, Mehparə Cəfərova, Tural Abdullayev və digər ifaçıların çıxışları şəhər sakinlərinin zövqünü oxşayıb.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və dəstəyi ilə hazırlanan nizamiganjavi.az saytının yaxın günlərdə istifadəyə veriləcəyi də bildirilib. Saytda dahi şairin həyatı, yaradıcılığı, Nizami haqqında tədqiqatlar, maraqlı məlumatlar öz əksini tapacaq.

# Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində anım konserti

## Ermənistanın hərbi təcavüzü nəticəsində itkin düşmüş, əsir və girov götürülmüş soydaşlarımızın xatirəsi anılıb

Parisdəki Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində itkin düşmüş, əsir və girov götürülmüş azərbaycanlıların xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib. Tədbiri ölkəmizin Fransadakı səfirliyi, UNESCO yanında daimi nümayəndəliyi və Fransa-Azərbaycan Dialoqu Assosiasiyası təşkil edib.

Tədbirdə Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev, UNESCO yanında daimi nümayəndə, səfir Elman Abdullayev, fransalı deputatlar, yerli ictimaiyyətin, diasporumuzun nümayəndələri iştirak ediblər.

Səfir Rəhman Mustafayev çıxış edərək Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları ilə başladığı hərbi təcavüz haqqında məlumat verib. Bildirib ki, ötən əsrin 90-cı illərinin əvvəlində Ermənistanın hərbi təcavüzü nəticəsində əsir və girov götürülmüş azərbaycanlılardan 1435 nəfər azad edilsə də, 3890 nəfər haqqında indiyədək məlumat yoxdur. Otuz il əvvəl Birinci Qarabağ müharibəsində itkin düşmüş soydaşlarımızın ailə üzvləri və yaxınları həsrət və iztirab içində əzizlərinin taleyi ilə bağlı məlumat gözləyirlər.

Ermənistanın azərbaycanlıları əsir-girov götürməsinə dair təkzibedilməz faktlar olduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, Ermənistanda, eləcə də erməni işğalı altında olmuş ərazilərimizdə yüzlərlə azərbaycanlıya əsir-girovluqda dözülməz fiziki və mənəvi-psixoloji işgəncələr verilib.





Diplomat Qarabağ müharibəsində itkin düşmüş, girov və əsir götürülmüş azərbaycanlılar haqqında məlumat əldə edilməsi məqsədilə ölkəmizin müvafiq qurumlarının, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq səviyyədə apardığı işlərdən söz açıb. Vurğulayıb ki, regionda təhlükəsizliyin təmin edilməsi, sülhün bərpası əsas prioritetdir. Bu istiqamətdə Fransanın da iştirakı vacibdir.

AMM-də itkin düşmüş, əsir-girov götürülmüş azərbaycanlılarla bağlı sərgi də təşkil edilib. Sərgidə əsir və girovluqda olmuş, sonradan azad olmuş bəzi insanlar haqqında fotolar və yazılar nümayiş olunub.

Tədbir itkin düşmüş və əsir-girov götürülmüş azərbaycanlıların xatirəsinə həsr edilmiş konsertlə davam edib.

Anım konsertində Etibar Əsədli (piano), Səddam Novruzbəyov (balaban), həmçinin fransız musiqiçi Alba Obert (violin) çıxış edib. "Laçın", "Qubanın ağ alması", "Sarı gəlin", "Ayrılıq" mahnıları, eləcə də 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn Xudayar Yusifzadənin ifası ilə yaddaşlara köçən "Vətən yaxşıdır" mahnısı səsləndirilib.

# IV "Animafilm" Beynəlxalq Animasiya Festivalının qalibləri açıqlanıb

Xəbər verdiyimiz kimi, 3-7 sentyabr tarixində Bakıda IV "Animafilm" Beynəlxalq Animasiya Festivalı keçirilib. Festivalda uşaqlar və böyüklər üçün 40 ölkədən 200-ə yaxın animasiya filmi nümayiş etdirilib. Builki festivalın mövzusu "Əlillik" idi.




Festivalın beynəlxalq münsiflər heyətinin tərkibi Nancy Denney-Phelps (sədr) və Nik Phelps (Belçika), Olivier Catherin (Fransa), Mariam Kandelaki (Gürcüstan), Piotr Kardas (Polşa), Mehdi Khorushy və Maryam Rouhbakhsh (İran), Məsud Pənahi və İradə Bağırzadə (Azərbaycan) kimi peşəkarlardan ibarət olub.

Ənənəvi olaraq bu il də festivalın uşaq münsifləri fəaliyyət göstərib. Onlar festival müddətində maarifləndirici və əyləncəli uşaq proqramında iştirak etdikdən sonra "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi" və "Uşaqlar tərəfindən çəkilmiş ən yaxşı animasiya filmi" kateqoriyaları üzrə iki qalibi seçiblər.

Sentyabrın 7-də festivalın bağlanış mərasimində qaliblər elan olunub.

"Azərbaycan animasiyasına verdiyi töhfəyə görə" təsvir rejissoru Ramiz Ağayev festivalın "Qızıl qayıq" mükafatına layiq görülüb.

Beynəlxalq müsabiqənin "Ən yaxşı tammetrajlı animasiya filmi", "Ən yaxşı qısametrajlı animasiya filmi", "Qısametrajlı animasiya filmi üçün ən yaxşı ssenari", "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi", "Ən yaxşı qısametrajlı tələbə animasiya filmi", "Ən yaxşı musiqili animasiya videosu" və s. nominasiyalar üzrə qalibləri seçilib.

Bundan əlavə, beynəlxalq münsiflər heyətinin xüsusi mükafatçıları da elan edilib. Azərbaycanlı rejissor Ruslan Kərimov jüri üzvü Məsud Pənahinin seçimi üzrə mükafata layiq görülüb.

Yerli müsabiqənin qalibləri isə "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" nominasiyasında "Araqçın" (rejissor Firəngiz Qurbanova) və "Qısametrajlı animasiya filmi üçün ən yaxşı Azərbaycan ssenarisi" üzrə "Balaca qırmızı şar" (müəllif Günel Eminli) olub.

Festival çərçivəsində gənc animasiya həvəskarları üçün vorkşop, Məsud Pənahinin ustad dərsi, Olivier Catherinin kino və animasiya prodüserləri üçün ustad dərsi, Nik Phelps və Nancy Denney-Phelps tərəfindən bəstəkarlar və səs rejissorları üçün seminarlar təşkil olunub.

IV "Animafilm" Beynəlxalq Animasiya Festivalının təşkilatçısı "Peri Film" şirkəti layihəyə dəstək olan bütün tərəfdaşlara, o cümlədən Mədəniyyət Nazirliyinə, Azərbaycan Kinematoqrafçılar İttifaqına, "Kreativ Azərbaycan" portalına, Fransanın, Çexiyanın, Polşanın ölkəmizdəki səfirliklərinə, YARAT Müasir İncəsənət Məkanına və digər təşkilatlara təşəkkürünü bildirib.

# "Aşıq Ələsgər" sənədli filmi bərpa olunub

C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının 1972-ci ildə istehsal etdiyi "Aşıq Ələsgər" sənədli filmi Azərbaycan Dövlət Film Fondu tərəfindən bərpa olunub.



Dövlət Film Fondundan bildirilib ki, filmdə aşığın anadan olduğu Göyçə mahalının görüntüləri, sənətkarın oğlu Aşıq Talıbın atasının məzarını ziyarət etdiyi kadrlar əksini tapıb.

Filmin ssenari müəllifi İlyas Tapdıq, rejissoru Xamis Muradov, operatoru Fəramiz Məmmədovdur. Film Prezident İlham Əliyevin Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında 18 fevral 2021-ci il tarixli sərəncamına əsasən bərpa olunub.

Xatırladaq ki, sənədli film 1971-ci ildə respublikamızın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunmuş "Aşıq Ələsgərin anadan olmasının 150 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan SSR hökumətinin qərarına əsasən lentə alınıb.

# Xalq artisti Şahmar Ələkbərovun arxiv fondu yaradılıb

Azərbaycan Dövlət Film Fondunda Xalq artisti, görkəmli kinoaktyor, rejissor Şahmar Ələkbərovun (1943–1992) şəxsi arxiv fondu yaradılıb.



Arxiv fonduna mərhum sənətkarın həyat və yaradıcılığını əks etdirən 200-dən artıq nadir fotoşəkil, həmçinin qəzet məqalələri, plakatlar, jurnallar, rejissor ssenariləri və başqa arxiv materialları daxildir.

Qeyd edək ki, arxivin böyük hissəsi Şahmar Ələkbərovun ailəsi tərəfindən təhvil verilib.

# "Azərbaycanın məhv edilmiş mədəni irsi ilə bağlı yeni hesabat hazırlayacağıq"

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili – ombudsman Səbinə Əliyeva Ermənistan işğalında olarkən minalanmış Azərbaycan əraziləri və bu ərazilərdə məhv edilən tarixi-mədəni abidələrlə bağlı hesabat hazırlamaq üçün İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasını ölkəmizə dəvət edib.



Türkiyə Böyük Millət Məclisinin (TBMM) Baş Ombudsmanlıq Qurumunun və İƏT Ombudsmanlar Assosiasiyasının rəhbəri Şeref Malkoç, İƏT Ombudsmanlar Assosiasiyasının Pakistandan olan baş katibi Muştaq Əhməd Sukhera və digər heyət üzvləri bu məsələləri hüquqi baxımdan araşdırmaq üçün sentyabrın 14-19-da Azərbaycana səfər edəcəklər.

Bu barədə məlumat verən Şeref Malkoç 2020-ci ilin 21-23 oktyabr tarixində Azərbaycana gəldiyini xatırladaraq, səfərin nəticəsi olaraq hazırlanan hesabatın geniş rezonans doğurduğunu vurğuladı: "Hamımızın bildiyi kimi, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı, BMT-nin buna qarşı müvafiq qərarlarına rəğmən, otuz ilə yaxın sürdü. Bir milyona yaxın insan yerindən-yurdundan didərgin oldu. Bu ürək ağrıdan və beynəlxalq hüquqa zidd olan bir hərəkət idi. Nəhayət, 2020-ci ildə 44 günlük savaşda Azərbaycan torpaqlarını işğaldan azad etdi. Keçən il savaş davam edərkən Ermənistan dövləti raketlərlə Azərbaycanın Gəncə, Tərtər və digər şəhərlərini vurdu və çox sayda insan öldü, yaralandı, yaşayış yerləri dağıdıldı. Biz də həm Türkiyə Baş Ombudsmanlığı, həm də İƏT Ombudsmanlar Assosiasiyasının rəhbəri olaraq orada insan hüquqları pozuntularını yerində araşdırdıq. Qısa zamanda topladığımız sənədlər, dəlillər əsasında hesabat hazırlayaraq ingilis dilinə tərcümə edib, başda BMT, Beynəlxalq Cinayət Məhkəməsi olmaqla dünyadakı bütün insan haqları qurumlarına göndərdik. İlk hesabatımızın təqdirlə qarşılanması bizim işimizə həm stimul verdi, həm də işimizi intensivləşdirdi. Ümid edirəm ki, hazırlanacaq yeni hesabatın da çox böyük əhəmiyyəti olacaq".

Şeref Malkoç bildirdi ki, bu dəfə işğal zamanı Ermənistan tərəfindən minalanmış Azərbaycan ərazilərində insanların ölüm faktları, mina xəritələrinin verilməməsi üzündən insanların həyatının təhlükədə olması ilə bağlı araşdırma aparacaqlar: "Minalanmış ərazilərin xəritəsinin verilməməsi cinayətdir. Eyni zamanda işğal zamanı dağıdılmış tarixi abidələrin, tarixi məkanların və tikililərin vəziyyəti obyektiv araşdırılacaq. Bu abidələrin bərpası, tarixə, mədəniyyətə yenidən qaytarılmasının mümkün olub-olmadığı da, təbii ki, öyrəniləcək. İnsanlığın bir parçası olan tarixi abidələrə və ətraf mühitə vurulan ekoloji zərərlərin təzminatının ödənməsi beynəlxalq hüquq çərçivəsində Ermənistandan tələb olunmalıdır. Məqsədimiz insanlığa qarşı edilən haqsızlığı aradan qaldırmaqdır".

Şeref Malkoç hazırlanacaq ikinci hesabatın Ermənistana da göndəriləcəyini dedi: "İƏT Ombudsmanlar Assosiasiyası olaraq Azərbaycanın minalanmış ərazilərinin xəritəsini hesabat vasitəsilə Ermənistandan istəyəcəyik. Ümid edirik ki, insanlıq naminə bu fəaliyyətimizin faydası olar. Biz heç kimin həyatının təhlükəyə düşməsini arzu etmirik. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi həm də Qafqazda sülhün və sabitliyin bərpası üçün mühüm zəmindir. Qafqazda sülh isə həm regionun, həm də insanlığın sülhə nail olunması deməkdir".

Qeyd edək ki, səfər çərçivəsində Türkiyənin Baş Ombudsmanın Azərbaycanın dövlət rəsmiləri, aidiyyəti qurumların rəhbərləri ilə görüşləri də nəzərdə tutulub. Səfər heyətində Türkiyə Baş Ombudsmanlığının Qadın və uşaq hüquqları üzrə ombudsmanı Celile Özlem Tunçak da yer alacaq.

**Mehparə SULTANOVA**
**Ankara**

# ATMU-nun beynəlxalq əlaqələri genişlənir

Azərbaycan Turizm və Menecment Universiteti (ATMU) və Macarıstanın Debretsen Universiteti arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb.

ATMU-dan bildirilib ki, memorandumda tərəflər arasında tələbə mübadiləsi, akademik və layihə əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur.

Debretsen Universiteti mühəndisliyin müxtəlif sahələri, biznes, kənd təsərrüfatı ilə əlaqəli sahələr, tibb elmləri, humanitar, sosial və dəqiq elmlər üzrə ixtisaslaşıb. 1538-ci ildə yaradılan universitet Macarıstanın ən qədim ali təhsil ocağıdır.

№68 (1845)
10 sentyabr 2021
www.medeniyyet.az

## “Dahilik zirvəsi – Nizami”

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon MKS-nin Qaradəmirçi və Xanağalı kənd kitabxana filialları Nizami Gəncəvinin 880 illiyi münasibətilə videoçarxlar hazırlayıblar.



Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun Nizami Gəncəvi məqbərə filialının birgə təşkilatçılığı ilə “Nizami Gəncəvi və Gəncə dahiləri” adlı onlayn görüş keçirilib. Tədbirdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Qoruqların idarə olunması və istifadəsinə nəzarət sektorunun müdiri Mahir Qəhrəmanov çıxış edib. Regional idarənin tabeliyindəki Samux rayon Mədəniyyət Mərkəzində Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı dəyirmi masa keçirilib.

Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Heydər Əliyev Mərkəzində “Dahilik zirvəsi – Nizami” adlı tədbir keçirilib. Tədbirin rəsmi hissəsində dahi şairin həyat və yaradıcılığından, “Nizami Gəncəvi İli” çərçivəsində həyata keçirilən silsilə tədbirlərdən ətraflı bəhs olunub. Bədii hissədə isə şəhər 1 saylı tam orta məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

## Vətən sizləri unutmayacaq



Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin 2-ci Nügədi kənd kitabxanası Vətən müharibəsi şəhidi Eynulla Lətifovun doğum günü münasibətilə tədbir keçirib.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon MKS-nin əməkdaşları rayonun Dağ Kəsəmən kəndində şəhidlərimizin xatirəsinə inşa olunan “Xarıbülbül” abidəsini, “Şəhidlər” abidə kompleksini və Vətən müharibəsi şəhidi Mahmud Əhmədovun Ağstafa şəhərindəki xatirə bulağını ziyarət ediblər. Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbinin pedaqoji kollektivi II Qarabağ müharibəsi şəhidi Asim Əliyevin doğum günündə məzarını ziyarət edib. Qazax rayon İkinci Şıxlı kəndində Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Emil Kərimov və Elmar Omarovun xatirəsinə inşa edilmiş bulaq kompleksinin və portretləri həkk edilmiş xatirə lövhəsinin açılışı olub. Tədbirdə İkinci Şıxlı kənd Folklor klubunun əməkdaşları iştirak ediblər.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon mədəniyyət müəssisələrinin rəhbərləri və əməkdaşları 2-ci Qarabağ müharibəsi şəhidləri Vüsal Cəfərov və Sübhan Əzizovun ailələrinə baş çəkiblər.






Kürdəmir Regional Mədəniyyət İdarəsi İmişli rayon Mədəniyyət Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Vüsal Şahmarlının məzarını ziyarət ediblər.

Bərdə Regional Mədəniyyət İdarəsi Tərtər rayon Heydər Əliyev Mərkəzinin kollektivi Vətən müharibəsinin ildönümü münasibətilə dəyirmi masa təşkil edib.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi rayon MKS-nin əməkdaşları tərəfindən Vətən müharibəsi şəhidi Tariyel Atayevin məzarı başında xatirəsi yad olunub.

## Görüşlər, sərgilər, ekskursiyalar...



Şəmkir Regional Mədəniyyət İdarəsi Göygöl rayonu üzrə nümayəndəliyin təşəbbüsü, rayon MKS-nin təşkilatçılığı ilə görkəmli teatr və kino aktyoru, Xalq artisti Siyavuş Aslanın (1935-2013) anadan olmasının 86-cı ildönümü ilə əlaqədar tədbir keçirilib. Çıxışlarda sənətkarın zəngin yaradıcılığından söz açılıb. Tədbirin sonunda aktyorun çəkildiyi filmlərdən videolentlər nümayiş olunub.

Ağdaş Regional Mədəniyyət İdarəsində kənd klub müəssisələrində çalışan əməkdaşlara metodiki köməklik göstərilməsi məqsədilə görüşlərə başlanılıb. İlk olaraq Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarında fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin direktorları ilə görüş keçirilib. Görüşdə qarşıda duran vəzifələr müzakirə olunub, xüsusi qrupların yaradılması ilə bağlı göstərişlər verilib. Layihə çərçivəsində eyni zamanda klub müəssisələrində sənədləşdirmə işlərinin aparılma qaydalarının, əhaliyə göstərilən mədəni xidmət çeşidinin artırılması, klub müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi və rəqəmsallaşdırılmasına nail olmaq məqsədilə treninqlərin keçirilməsi nəzərdə tutulub.

Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Mədəniyyət Mərkəzində saz-söz ustadının anadan olmasının 200 illik yubileyi ilə bağlı “Aşıq Ələsgər poeziyası haqqında düşüncələr” mövzusunda tədbir keçirilib. Çıxışlardan sonra sərgiyə baxış keçirilib. Sərgidə Aşıq Ələsgərin həyat və yaradıcılığı haqqında materiallar, fotolar, şeirlərinin yer aldığı və haqqında yazılan kitablar nümayiş olunub.





Şəki Regional Mədəniyyət İdarəsi Zaqatala rayon Heydər Əliyev Mərkəzində Samux rayonunda yaşayan gənclər üçün ekskursiya təşkil edilib.

Mərkəzin ekspozisiya zalında ümummilli liderin həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verilib. Sonra gənclər foyedə təşkil olunmuş kitab və dərnək üzvlərinin əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Balakən rayon Heydər Əliyev Mərkəzində “Uşaqlar bizim gələcəyimizdir” adlı bukletlər hazırlanıb. Bukletdə Azərbaycanda uşaq hüquqları haqqında qəbul edilmiş qanunvericilik bazası, uşaq hüquqlarının əsasları barədə məlumat verilib, ulu öndər Heydər Əliyevin bu sahədəki rolundan bəhs olunub. Balakən rayon Mərkəzi Kitabxanasında “Sülh aylığı” çərçivəsində tədbir təşkil edilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon Sərkar kənd Uşaq musiqi məktəbinin səs-muğam müəllimi İslam Əlizadə avqust ayında Bakı şəhərində keçirilən “Türkiyə keyfiyyət mükafatları-2021” layihəsində peşəkarlıq və uğurlu fəaliyyətinə görə təltif edilib. Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov təşəkkürnamə və mükafatı İ.Əlizadəyə təqdim edib.



Xocalı rayon Mədəniyyət evində Aşıq Ələsgərin anadan olmasının 200-cü ildönümü münasibətilə tədbir təşkil edilib. Çıxış edənlər ustadın çoxəsrlik aşıq sənətinin inkişafına verdiyi töhfələrdən söz açıblar.



İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ Dövlət Rəsm Qalereyasında tanınmış rəssam Səməd Haqverdiyevin əsərlərindən ibarət sərgi təşkil olunub.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Heydər Əliyev Mərkəzində bir qrup gənc turist üçün ekskursiya təşkil edilib. Mərkəzin bələdçisi Şəfa Xəlilova turistləri ümummilli lider Heydər Əliyevin zəngin dövlət idarəçiliyi təcrübəsini əks etdirən materiallarla tanış edib. Masallı rayon Mərkəzi Kitabxanasında isə Jurnalistlərin Beynəlxalq Həmrəyliyi Günü (8 sentyabr) ilə əlaqədar tədbir keçirilib. Bildirilib ki, dünya mediası üçün əlamətdar sayılan bu tarix 1943-cü il sentyabrın 8-də hitlerçilər tərəfindən qətlə yetirilmiş çexiyalı jurnalist Yulius Fuçikin xatirəsinə 1958-ci ildə təsis edilib.

**Hazırladı: N.MƏMMƏDLİ**

## “Mədəniyyət kəndlərdə” – Masallı RMİ-nin yeni layihəsi



Masallı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə “Mədəniyyət kəndlərdə” adlı yeni layihəyə başlanılıb. Masallı rayonunun Mahmudavar kəndində keçirilən ilk tədbirdə rayon rəsmiləri, mədəniyyət işçiləri, media mənsubları, yerli sakinlər iştirak ediblər.

Rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrının rejissoru Cəmaləddin Əliyev layihənin ilk tədbiri üçün Mahmudavar kəndinin təsadüfən seçilmədiyini, bölgənin zəngin mədəni ənənələrini yaşadan “Halay” folklor ansamblının burada yaradıldığını bildirib.

Regional idarənin rəisi Bəxtiyar Qılıncov qeyd edib ki, layihənin məqsədi kəndlərdəki müəssisələrin fəaliyyətində müsbət irəliləyişlərə nail olmaq, istedadlı gənclərin üzə çıxarılaraq yaradıcı imkanlarının dəstəklənməsidir.

Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Aybəniz Qafarova tədbirin təşkilində əməyi keçənlərə minnətdarlıq edib və bu kimi layihələrin kəndlərdə mədəniyyətin inkişafına təkan verəcəyini vurğulayıb.

Masallı Tarix-Diyarşünaslıq Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Əntiqə Tağıyeva Mahmudavar kəndinin tarixi və arxeoloji abidələri, coğrafi mövqeyi, təsərrüfat həyatı, ziyalıları, mədəni mühiti, o cümlədən folklor irsi və ənənələri barədə məruzə ilə çıxış edib.

Tədbirin bədii hissəsində “Halay” folklor ansamblının ifasında Vətən sevgisi və şəhidlik zirvəsini vəsf edən bayatılar söylənilib, tələbə və məktəblilər vətənpərvərlik şeirləri səsləndiriblər. Layihədə iştirak edən mədəniyyət müəssisələri isə qədim əşyalar, müxtəlif xalq sənətkarlığı nümunələrindən ibarət sərgi ilə tədbirə rəng qatıblar.

Sonda mədəniyyət tədbirlərində fəal iştirak edən bir qrup tələbə və məktəbliyə regional idarənin təşəkkürnaməsi təqdim olunub.

## Ağstafada Neolit dövrü abidəsində tədqiqatlar

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini, tarix elmləri doktoru, professor Nəcəf Müseyiblinin rəhbərlik etdiyi ekspedisiya Ağstafa rayonu ərazisindəki Neolit dövrünə (e.ə. VI minillik) aid Çağrıtəpə yaşayış yerində keçən il başlanmış genişmiqyaslı arxeoloji qazıntı işlərini bu yay mövsümündə davam etdirib. 2013-cü ildə ekspedisiyanın abidədə apardığı ilk qazıntı işləri ilə yaşayış yerinin Neolit dövrünə, Şomutəpə arxeoloji mədəniyyətinə aid olduğu müəyyən edilib.



Arxeologiya və Etnoqrafiya İnstitutundan bildirilib ki, son iki mövsümdə Çağrıtəpədə 200 kvadratmetr sahədə qazıntı işləri aparılıb. Məlum olub ki, burada Neolit dövrü yaşayış yerinin üstündə, təpənin şərq tərəfində minilliklər sonra – VIII-X əsrlərdə yaşayış məskəni salınıb. Qazıntı zamanı həmin dövrə aid saxsı qab nümunələri, dən daşları, ocaq yerləri aşkar edilib. Buna görə də üst qatlarda Neolit dövrü və Orta əsrlərə aid qalıqlar qarışıq aşkar edilib.

Çağrıtəpədə Neolit dövrünə aid çiy kərpic və möhrə ilə inşa edilmiş dairəvi-oval planlı tikili qalıqları, eyni zamanda təsərrüfat quyuları və ocaq yerləri aşkarlanıb. Kəsici alətlərin əksəriyyəti obsidiandan (vulkanik şüşədən) hazırlanıb. Bunlar oraq dişləri, qaşov, iskənə, yonqar, kəsər tipli alətlərdir. Çaxmaqdaşından da az sayda eyni tipli alətlər hazırlanıb. Daş alətlər dən daşları, sürtgəclər, həvəng dəstə və s. tapıntılardır. Ərazidən heyvan sümüklərindən düzəldilmiş deşici alətlər – bizlər də aşkar edilib.

Maraqlı tapıntılar sırasında alət hazırlanması üçün tədarük edilmiş obsidian lövhələrin və qəlpələrin dəfinələrini qeyd etmək olar. Qazıntı sahəsində bir neçə yerdə belə dəfinələr aşkarlanıb.

Çağrıtəpədə aparılmış qazıntılarla müəyyən edilib ki, abidənin Neolit dövrü sakinləri dairəvi-oval quruluşlu, bir-birinə yaxın, sıx tikilmiş evlərdə yaşayıb, əkinçilik, maldarlıq və ev sənətkarlığı ilə məşğul olublar. Ərazidə qazıntı işləri davam etdiriləcək.

## Xəzər regionu ölkələrinin informasiya əməkdaşlığı

### Həştərxan şəhərində növbəti mediaforum keçirilir

Sentyabrın 10-11-də Rusiyanın Həştərxan şəhərində VI Xəzər Mediaforumu keçiriləcək. Ənənəvi tədbir bu il “Rossotrudniçestvo” və “Rosturizm” federal agentliklərinin, MDB Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun dəstəyi, Həştərxan Vilayətinin Hökuməti, “Xəzər-Avrasiya” Beynəlxalq və İctimai-Siyasi Araşdırmalar Mərkəzi” Assosiasiyası və “Şimal-Cənub” Politoloji Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Xəzəryanı Rusiya, Azərbaycan, İran, Qazaxıstan və Türkmənistan, eləcə də regiona qonşu olan Özbəkistandan media nümayəndələri, politoloq, ekspert və analitikləri bir araya gətirən tədbir regional və beynəlxalq jurnalistikanın inkişafının yeni istiqamətlərinə dair təcrübə mübadiləsi və region ölkələri üçün vahid informasiya məkanının yaradılması məsələlərinin müzakirəsi üçün əlverişli məkan olacaq.

Gündəliyin əsas hissəsi Xəzəryanı dövlətlərin və Rusiyanın sərhədyanı ərazilərinin etnik brendləri əsasında turizm istiqamətinin inkişafı, etnoturizm və ekoloji materialların yaradılması və mübadiləsi ilə bağlı praktiki tövsiyələr və layihə təşəbbüslərinin hazırlanması məsələlərinə həsr ediləcək. “Rəqəmsal dövrdə trevel jurnalistika”, “Mədəni kodun qorunub saxlanılması. Medianın rolu” və “Yeni informasiya kommunikasiyaları sistemində maarifçi media layihələri” adlı panel toplantıları nəzərdə tutulub.

Forum ərəfəsində, sentyabrın 9-da “Rossotrudniçestvo”nun “Yeni nəsil” gənclər proqramı çərçivəsində tədbirlər və “Xəzər Könüllülər Məktəbi”nin iclası keçirilib.

## Kəhrizlər qədim su idarəetmə mədəniyyətidir

### Milli atlas və plan hazırlanıb

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) ölkəmizdəki nümayəndəliyi Azərbaycanda su ehtiyatlarından səmərəli istifadəyə dair ümumi müzakirələr çərçivəsində kəhriz konsepsiyasının əsaslarının və “Kəhrizlər üzrə Milli Baş Plan”ın hazırlanmasında iştirak edir.



Sentyabrın 7-də nümayəndəlik bu mövzunda ikinci onlayn seminar keçirib. Seminarda layihə tərəfdaşları, mütəxəssislər, dövlət təşkilatları və təhsil qurumlarının nümayəndələri iştirak ediblər.

Seminar zamanı iştirakçılara kəhrizlərin bərpası, “Kəhriz Araşdırma və Məlumat Mərkəzi”nin fəaliyyəti və Azərbaycan Dövlət Aqrar Universitetində (Gəncə) kəhriz mühəndisliyi kursunun tədrisi haqqında məlumat verilib. Layihə qrupu ilə sıx əməkdaşlıq şəraitində müstəqil ekspertlər tərəfindən hazırlanmış Azərbaycandakı kəhrizlər haqqında “Milli Atlas”ın (iki dildə) və “Kəhrizlər üzrə Milli Baş Plan”ın təqdimatı keçirilib, müzakirələr aparılıb.

BMqT-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Vladimir Qyorgiyev Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOİCA) maliyyə dəstəyi ilə həyata keçirilən “Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı” layihəsinin əhəmiyyətini bir daha vurğulayıb: “Biz ümid edirik ki, yaxın gələcəkdə kəhriz su sistemlərinin Azərbaycan xalqının rifahına xidmət edən milli su idarəetmə siyasətinin bir hissəsi olduğunu görəcəyik. KOİCA-nın dəstəklədiyi hazırkı layihə çərçivəsində açılmış Kəhriz Tədqiqat Mərkəzi, müvafiq internet saytı, kəhrizlər haqqında çap edilmiş təhsil kitabı, kəhrizlərin milli atlası və baş planı buna şərait yaradacaq”.

Qeyd edək ki, layihədə kəhrizlərin bərpası, kəhriz mühəndisliyi və kankanların bacarıqlarının inkişafı, kəhrizdən istifadə və sudan səmərəli istifadə barədə ictimaiyyətin məlumatlandırılması kimi məsələlər nəzərdə tutulur.



# Ayrılmaq istəmədiyimiz məkan

## Paytaxtın yeni istifadəyə verilən "Gənclik" parkından təəssürat

Xəbər verdiyimiz kimi, Bakının Xətai rayonu ərazisində yeni füsunkar məkan – "Gənclik" parkı yaradılıb. Avqustun 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın açılışını etdiyi parkın genişliyi, burada paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının rahatlığı, istirahəti, asudə vaxtını keçirməsi üçün yaradılmış şərait haqqında məlumatlar bir gənc kimi diqqətimi çəkməyə bilməzdi. Odur ki, fotoqrafımızla birlikdə üz tutduq gənclərin yeni ünvanına.

Bir zamanlar baxımsız olan bu ərazinin əvvəlki görkəmindən əsər-əlamət qalmayıb. Burada geniş quruculuq-abadlıq işləri aparılıb, ərazi Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib. Parkda hər yaşdan insanlar, xüsusilə də biz gənclər üçün uyğun infrastruktur yaradılıb. Bu məkana üz tutanlar həm yay, həm də qış aylarında paytaxt Bakının, o cümlədən mavi Xəzərin əsrarəngiz mənzərəsini seyr edə bilərlər.

43 hektar ərazini əhatə edən parkda çoxlu ağaclar əkilib, yaşıllıqlar salınıb. Parkı gəzməyə gələnlər asudə vaxtlarını səmərəli keçirməklə yanaşı, özlərini meşədə, təbiət qoynunda hiss edəcəklər.

Yeni istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fiziki məhdudiyyətli şəxslər üçün də xüsusi idman və əyləncə sahəsi yaradılıb.

Ərazidə qurulan "Ürəklər" kompozisiyası isə paytaxtımıza, təbiətimizə, insanlara olan sevgini tərənnüm edir.

### "Özümü təbiət qoynunda hiss edirəm"

Yeni yaradılsa da, parkda xeyli sayda insan vardı. Adı "Gənclik" olsa da, parkda hər nəslin nümayəndələrini görmək mümkün idi. Ailəsi və yaxınları ilə istirahət edən kim, dostları ilə gəzən, yaşıllıqda kitab oxuyan kim...

Parkda rast gəldiyimiz insanların üzündə bir məmnunluq hiss olunurdu. Bu məmnuniyyəti dillərindən eşitmək üçün parkda dolaşan bəzi insanların fikirlərini öyrəndik.

Yaşar Məmmədovun əlli doqquz yaşı var. Əslən Quba rayonundan olan həmsöhbətim təbiəti çox sevdiyini deyir: "Dağlıq ərazidə böyümüşəm. Təbiətə sevgim də elə bununla bağlıdır. Park açılandan artıq 3-4 gündür buraya gəlirəm. Qaçıram, idmanla məşğul oluram. Burada əvvəllər də park var idi, ancaq çox baxımsız vəziyyətdə idi. İndi çox gözəl şərait yaradılıb. Bizim də borcumuz bu gözəl parkı, yaşıllığı qorumaqdır. Parkın təşkilində əməyi olan hər kəsə təşəkkürümü bildirirəm".

Parkda bağlı və açıq futbol meydançaları da qurulub. Qaçış üçün cığırlar, eləcə də velosiped yolları parkın idmansevərlərin ən çox üz tutduqları məkana çevriləcəyindən xəbər verir. Bu da gənc nəslin sağlamlığı üçün çox əhəmiyyətlidir. Ərazidə ziyarətçilər üçün piknik məntəqələri də yaradılıb.

Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb.

Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür. Göl parkın gözəlliyinə gözəllik qatır, özünü şəhərdə yox, dağlıq ərazidə, meşəlikdə hiss edirsən.

Gölün ətrafında istirahət edənlərdən biri də Samid Quliyevdir. O, bu gözəl məkana qızı Şəmslə gəlib: "Yeni salınan bu park göz oxşayır. Ailəmizlə asudə vaxtımızı həmişə burada dəyərləndirəcəyik. Təmiz havası, əyləncə üçün attraksion çox gözəldir".



Bu cür geniş əraziyə və müxtəlif idman və əyləncə qurğuları ilə təchiz olunmuş parkı kim istəməz ki. Bu gözəllikdən zövq almağa çalışıram. Parkın salınmasında əməyi keçən hər kəsə təşəkkür edirəm. Qoca, cavan, uşaq – hər yaşdan insanın istirahət edə bilməsi üçün çox əlverişli məkandır. Fəxr edirəm ki, şəhərimizdə belə gözəl park var".



Həmsöhbətimizdən ayrılıb gəzintiyə davam edirik. Parkda yüyürüş edən Ceyhun Dadaşova yaxınlaşırıq. O, Hövsan qəsəbəsindən gəlib. Deyir ki, hər axşam işdən çıxanda yolunu parkdan salır: "Yaşıllıqlar arasında özümü təbiətin qoynunda hiss edirəm, beləcə, ruhum dincəlir, günün yorğunluğunu çıxarıram. Yeni park paytaxtın gözəlliyinə gözəllik qatıb.

Parkda istirahət edən insanlarla yanaşı, açıq havada, yaşıllığın qoynunda kitab oxuyan gənclər də çoxdur.

Savalan İsmayılzadə öz təəssüratlarını bizimlə bölüşür: "Bu park biz gənclər üçün çox əlverişlidir. Mən açıq havada kitab oxumağı çox sevirəm. Parkın salınması da buna görə mənim üçün göydəndüşmə oldu. Kitabımı götürüb buraya gəlirəm və özümə bir yer seçib yaşıllıqların əhatəsində mütaliə edirəm. Parkın həm yaşıllıqlara, həm də süni gölə malik olması onu daha da gözəlləşdirir. Bura velosiped sürmək, piknik etmək və ailəmizlə vaxt keçirmək üçün də əla məkandır".



Parkın açılmasına ən çox sevinənlər, heç şübhəsiz, uşaqlardır. Onsuz da uşaqlar oyundan, əyləncədən yorulmurlar. Yeddi yaşlı Ümid Abdullayevin timsalında bunu görmək mümkündür. Ümid paytaxtdakı 269 saylı tam orta məktəbdə təhsil alır. Artıq yay tətili bitmək üzrədir, tezliklə dərslər başlayacaq. O da tətilin son günlərində parkdakı attraksiondan doyunca istifadə edir.

### İçimdən keçən minnətdarlıq duyğusu

Artıq günəş qüruba doğru gedir. Oturacaqların birində əyləşib biz də parkın gözəlliyini seyr edirik. Heç ayrılmaq istəmirik. İstər-istəməz, mənim də qəlbimdən bu abadlığı, bu təbii zənginliyi yaradanlara minnətdarlıq duyğusu keçir. Çünki bir zamanlar bu əraziyə kimsə ayağını qoymaq istəməzdi. Hətta bir neçə il əvvəl sakinlər buradakı vəziyyətdən şikayət də etmişdilər.

2019-cu il noyabrın 11-də burada Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin ağacəkmə aksiyasında iştirak edən dövlət başçısı İlham Əliyev parkın abadlaşdırılması, təbii mənzərəsinin qorunub saxlanılması, burada əyləncə və idmanla məşğul olmaq üçün şəraitlə yanaşı, iaşə obyektlərinin qurulması, insanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastrukturun yaradılmasına dair tapşırıqlar vermişdi.

Artıq nəticə göz qabağındadır. Yeni istirahət mərkəzi paytaxtın ən gözəl məkanlarından biri, bəlkə də birincisidir.

Parkdan ayrılarkən düşünürdüm ki, pandemiyanın tüğyan etdiyi bu günlərdə dincəlmək, asudə vaxtını keçirmək üçün bura ideal bir yerdir. Çünki qapalı məkanlardan fərqli olaraq bu ucsuz-bucaqsız parkda gəzib əylənmək üçün nə COVİD-19 pasportu, nə də vaksin sertifikatı soruşan var...

**Nurəddin MƏMMƏDLİ**
**Foto: Həbib HÜSEYNOV**

# Gəl, qonağımız ol...

## Razı qalsaq da, qalmasaq da?!

Sentyabrın gəlişi, payızın ilk işartıları ilə yay istirahəti mövsümümüz də başa çatdı. Daha doğrusu, yay istirahəti etməyə maddi və fiziki imkanı olanların əl-ayağı yollardan çəkildi. Təbii ki, söhbət daha çox istirahət üçün ölkəsində qalan, maddi, bir az da pandemiya məhdudiyyəti səbəbindən çamadanını yaxın-uzaq rayonlarda boşaldanlardan gedir.

Daha çox kütləvi, yəni qiymətinə görə əlçatan görünən bölgə və məkanlardan, onların xidmət səviyyəsindən danışmaqla istirahətdən nə dərəcədə zövq ala bildiyimizi analiz edəcəyik. Ki növbəti istirahət mövsümü üçün təəssüratımız, bir növ məlumat bazamız olsun və kiməsə ürəklə "Gəl, qonağımız ol" deyə bilək.

Son illər paytaxtla yanaşı, bölgələrdə də iaşə obyektlərinin, hotel və istirahət mərkəzlərinin sayı sürətlə artır. Buna gecələmək üçün təklif olunan şəxsi evləri də daxil etsək, kifayət qədər böyük rəqəm alınır. Sözsüz ki, bu kəmiyyət artımı keyfiyyətin də lazımi səviyyədə yüksəlməsini tələb edir. Amma görünən odur ki, bu istiqamətdə vəziyyət elə həmin məkanları işlədən sahibkarların ümidinə, bir növ insafına qalıb. Xidməti də, qiyməti də, tərtibatı da, qarşılanmanı da, münasibəti də öz bildikləri kimi edir və sadəcə, müştəriyə pulqabı kimi baxırlar. Təbii ki, istisnalar da yox deyil.

Bəs turizm, istirahət məkanları, əslində, necə işləməlidir? Məsələn, Dövlət Turizm Agentliyindən (DTA) əhalinin regionlarda yaxşı istirahət etməsi üçün bütün şəraitin olduğunu tez-tez dilə gətirirlər. Haqlıdırlar da. Çünki füsunkar ana təbiət bu mənada daha səxavətlidir.

Əsas turizm mövsümü kimi yay aylarında regionlarda nəinki hotellər, istirahət məkanları, piknik əraziləri, hətta fərdi evlər də dolu olur. Təsadüfi deyil ki, şimal bölgəsində fərdi evlər, demək olar ki, bir neçə ay öncədən sifariş edilir. Qiymətlər də hər seqmentdən olan turistlər üçün münasibdir...

Fikrimizcə, Azərbaycanı yaxın illərdə dünyada ən çox ziyarət edilən ölkələr sırasına daxil etmək istəyiriksə, vətəndaş-turist, məmur-turizmçi olaraq birləşməli və ölkəmizi bu yöndə də yaxşı təqdim etməliyik. Bunun üçün, sadəcə, xidmət səviyyəsi yüksəldilməli, peşəkar kadrlar cəlb olunmalı, turizm bölgələrinə xas mədəni marşrutlar işlənməli, oranın mətbəx nümunələri bütün zənginliyi ilə təqdim olunmalı, sağlam rəqabətli, şəffaf biznes mühiti yaradılmalıdır.

Əslində, sadə, zövqlü, evində qonaq qarşılamaq qədər təbii proses ətrafında mütəxəssis rəyləri alarkən problemin nə qədər dərin olduğunu bir daha anlamış olduq. Azad İstehlakçılar İctimai Birliyinin (AİİB) sədri, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) yanında İctimai Şuranın üzvü Eyyub Hüseynov bu sahədə illərdir ciddi problemlər yaşandığını deyir: "Ən azı hər gün bu məsələlərlə bağlı bizə 2-3 telefon zəngi olur və bu barədə ciddi narazılıqları eşidirik. Turizm həvəskarı olaraq da bu xidmət sahəsi ilə bağlı xeyli araşdırmalar aparır və çalışıram istehlakçıların hüquqları qorunsun. Bir-bir ad çəkmək istəmirəm, amma təəssüflə vurğulamalıyam ki, bölgələrimizdəki, xüsusən turizm baxımından kütləvi ziyarət olunan, istirahət üçün seçilən rayonlarımızdakı orta səviyyəli iaşə obyektlərində vəziyyət bərbaddır. Məsələn, uniforma o yana, heç adi səliqə-sahmandan xəbərsiz masa xidmətçiləri, həşəratların uçuşduğu mətbəxləri, normal istehsal prosesindən keçməyən yeməklər. Qiymət isə xidmətdən çox-çox fərqlidir. İstehlakçı hər fürsətdə aldadılır.

Həmsöhbətimiz bu kimi halların əksər istirahət məkanlarında yaşandığını deyir: "İri obyektlərin, beşulduzlu hotellərin xidməti ilə rəqabətə girə bilməyən kiçik obyektlər qiymətdən narazılıq edənlərə tez həmin hotellərin menyusunu və qiymətlərini sadalayırlar. Sahibkara deyən lazımdır ki, turist, təbii ki, öz büdcəsinə uyğun olaraq səni seçib



Eyyub Hüseynov



Tahir Əmiraslanov

və səndən də məhz nəzərdə tutduğu menyunu istəyir. Maraqlıdır ki, həmin məkanlar kottec qiymətlərini nisbətən aşağı, yəni hotel nömrələrinə görə ucuz yazıb müştəri cəlb edir və müştərini yemək menyusunda "qarət" edirlər. Bundan əlavə, məkanların böyük əksəriyyətində kassa çeki verilmir, tələb edəndə də formal bir sənəd təqdim olunur".

E.Hüseynov problemin həllini müvafiq assosiasiyaların təcrübə mübadiləsində, həmçinin tələbkarlığın artırılmasında maarifləndirmə işində görür: "Etiraf edim ki, nə əlaqədar qurum kimi AİİB, nə də AQTA ölkədəki bütün obyektləri əhatə edə bilmir və nəticədə belə vəziyyət yaranır. Düşünürəm ki, Dövlət Vergi Xidməti bu məkanlarda ciddi iş aparmalı, qiymətlərə nəzarət olunmalı, vergidən yayınma halları aradan qaldırılmalı və vahid qiymət sxemi yaranmalıdır".

***

İstirahətdən danışırıqsa, bir məqama xüsusilə diqqət yetirməliyik. Hər bir xalqın, bölgənin mədəni zənginliyinin göstəricilərindən biri də məhz onun milli, özünəməxsus mətbəxidir. Təsadüfi deyil ki, "Mədəniyyət haqqında" qanunumuzun ayrıca maddəsi milli kulinariya nümunələri ilə bağlı müddəaları özündə əks etdirir. Qanuna əsasən, Azərbaycan Respublikasında milli kulinariya nümunələrinin sistemləşdirilməsi, qorunması, təbliği, həmçinin kulinariya nümunələrinin milli mədəni irsə aid edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Yəqin hər biriniz paytaxtdan tutmuş ən ucqar bölgəyə qonaq olduğunuz bütün məkanlarda 4-5 milli mətbəx nümunəsi, uzağı qəlyanaltıdan qənnadıya 10-12 növ məhsulla qidalanmısınız. Nəzərə alsaq ki, turizmin inkişafını şərtləndirən amillərdən biri də yerli, lokal mətbəx nümunələrinin yüksək səviyyədə təqdimatıdır. Ötən il Dünya Turizm Təşkilatının 80 ölkədə apardığı sorğu da fikrimizin əyani sübutudur. Sorğuda iştirak edən turistlərin 85 faizi olduqları ölkəni mətbəxi, fərqli dadları ilə xatırlayırlar. Deməli, yemək təkcə mədəmizi yox, həm də zövqümüzü doydurur. Bizdə isə bu məsələyə baxış bir başqadır.

Mövzu ilə bağlı Azərbaycan Milli Kulinariya Mərkəzinin (AMKM) prezidenti, Əməkdar mədəniyyət işçisi Tahir Əmiraslanovun da fikirlərini öyrəndik. Mütəxəssis bu sahədəki problemin əsas məqamlarını diqqətə çatdırdı: "Bu sahədə illərdir ki, problemlər var və pandemiya, turistlərin daha çox ölkə daxilindəki məkanlarda dincəlməsi, necə deyərlər, eyiblərimizi diqqət mərkəzinə gətirdi.

Ölkəni tanıtmağın əsas hissəsi həm də mətbəxdir və bir sıra ölkələr bununla bağlı müvafiq proqram işləyib hazırlayıblar. Bilirsiniz, təhsil yoxdursa, milli irs, milli mətbəximiz üzrə tədris vəsaiti yoxdursa, biz necə peşəkar aşpaz, süfrəçi, hotel işçisi barədə danışa bilərik? Təkcə regionlarda deyil, elə paytaxtdakı məkanların da, demək olar ki, hamısı Azərbaycan mətbəxindən təxminən eyni şeyləri hazırlayırlar. Xüsusən rayonlarda yazılı yox, səsli menyu var. Yəni süfrəçi gəlir və sadalayır. İndi birdən ondan sadaladığı yeməklərin tərkibini soruşsan, qiyamət qopar. Neyləsin, bilmir axı. Heç aşpaz da dərin məlumatlı deyil. Restorana daxil olarkən müştəriyə menyu verilməli, xörəyin miqdarı, istifadə olunan ərzaqları və qiyməti də mütləq qeyd olunmalıdır. Heç menyu da düzgün tərtib olunmur. Xörəklərin adlarını düzgün yazmırlar. Restoranlara da Azərbaycan dili, dövlət dilimiz gəlməli və vəziyyət kökündən dəyişməlidir. Problemin kökü təhsildədir və o yoxdursa, yəni mühəndis-texnoloq hazırlanmırsa, bizim dediklərimiz havada qalacaq".

Müsahibimiz deyir ki, milli mətbəximizə aid 4000 növ xörəkdən vur-tut 4-5-i təklif olunur. Rayonlarda vəziyyət daha acınacaqlıdır: "Aşpazların, ixtisaslı qida mühəndislərinin, əgər varsa, sertifikasiyasına böyük ehtiyac var. Xarici ölkələrdə yaxşı aşpaz hazırlamaq üçün təhsilin 70-80 faizi nəzəriyyədirsə, bizdə 90 faizi təcrübədir. Nümunəvi obyektlər olmalıdır və onlar üzərindən təcrübə keçilməlidir. Ölkənin gələcəyə hesablanmış daimi gəlirli mənbələrindən biri də turizmidirsə, bu işi peşəkarlara həvalə etməli və maddi mədəni, mənəvi irsimizi layiqli təqdim etməliyik. Bu kimi problemləri həll etməsək, hər istirahət məkanında həmin mənzərənin şahidi olacağıq. Beləcə, Lerikdən Qusara ya eyni yeməklərlə doyacaq, ya da iştahamızı həmişəlik küsdürəcəyik".

**Həmidə NİZAMİQIZI**

# Azərbaycan ilə Serbiya arasında turizm əlaqələri müzakirə olunub

Sentyabrın 8-də Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev Serbiya Respublikasının Azərbaycandakı səfiri Draqan Vladisavlyeviç ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Serbiya arasındakı turizm üzrə əlaqələrin inkişaf perspektivləri, pandemiyanın turizmə təsirləri və bu dövrdə həyata keçirilmiş layihələr, eləcə də təcrübə mübadiləsi məsələləri müzakirə olunub.

Dövlət Turizm Agentliyindən bildirilib ki, görüşdə Fuad Nağıyev Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin turizm potensialı və oradakı turizm infrastrukturunun yenidənqurulması və bərpası istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, gələcəkdə əcnəbi turistlər yeni turizm destinasiyası kimi tanınacaq Qarabağa cəlb olunacaqlar.

Səfir Draqan Vladisavlyeviç növbəti illərdə qarşılıqlı səfərlərin artacağına və əlaqələrin daha da inkişaf edəcəyinə inandığını bildirib.

Görüş zamanı turizm sahəsində qarşılıqlı investisiyaların artırılması, birbaşa aviareyslərin açılması üzrə müvafiq tədbirlərin görülməsi, postpandemiya dövründə turizmin bərpası üzrə planlaşdırılan fəaliyyətlər haqqında da qarşılıqlı fikir mübadiləsi aparılıb.

№68 (1845)
10 sentyabr 2021
www.medeniyyet.az

# "Yalnız irəli! Geriyə yol yoxdur!"

Ürəyi Vətən sevgisi ilə döyünən oğullar 44 günlük Vətən müharibəsində şərəfli bir tarix yazdılar. O tarix ki, üstündən illər, əsrlər keçsə də, xalqımızın yaddaşından heç zaman silinməyəcək, qürur ünvanı kimi xatırlanacaq. Vətənin bütövlüyü üçün canlarından keçən qəhrəmanlarımızdan biri də kapitan Samid Gülmalı oğlu Əsgərovdur.



1989-cu il oktyabrın 12-də Neftçala rayonunun Boyat kəndində dünyaya göz açan Samid ilk təhsilini şəhid Bəhruz Həşimov adına kənd tam orta məktəbində alıb. Daha sonra təhsilini Neftçala şəhər şəhid Elton Həbibov adına 4 saylı orta məktəbdə davam etdirib. O, kiçik yaşlarından hərbə maraq göstərir, məktəb yoldaşlarına böyüyəndə hərbçi olacağını deyirdi. Elə bu istək və amalla 2005-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olunur. 2008-ci ildə liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. Məktəbi bitirdikdən sonra leytenant hərbi rütbəsi alaraq Ağdam rayonunda N saylı hərbi hissədə xidmətə başlayır. Xidməti dövründə ona verilən tapşırıqları vaxtında və dəqiq yetirdiyinə görə dəfələrlə müxtəlif diplom və sertifikatlarla, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" və "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalları ilə təltif olunur.

Ötən il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Samid də igid oğullarımız kimi ön cəbhəyə yollanır. İlk olaraq Füzuli rayonunun Seyidəhmədli kəndi istiqamətində döyüşür. Şəhid Milli Qəhrəman, general Polad Həşimovun adı ilə aparılan bu döyüşdə düşmənin keçilməz səddi yarılır. Onunla birgə odlu-alovlu səngərlərə atılan döyüş yoldaşlarının sözlərinə görə, Samid "Kişilər, yalnız irəli, axıra qədər, geriyə yol yoxdur!" deyərək döyüşü idarə edir, cəngavər kimi vuruşur. Sentyabrın 30-da Füzuli istiqamətində gedən döyüşlərin birində qəlpə yarası alsa da, düşmənə qan uddurmağa davam edir. Bu zaman düşmənin minaatan mərmisinin partlaması nəticəsində qəhrəmancasına şəhid olur.

Atası Gülmalı Əsgərov qeyd edir ki, Samid el-obasını sevən, ailəsinin qeydinə qalan, çox vətənpərvər övlad idi: "Bir ata olaraq heç zaman ondan inciməmişəm. Əsgərləri danışanda deyirdi ki, Samid bizə komandirdən əlavə dost, qardaş əvəzi olmuşdu. 2020-ci ilin sentyabr ayında biraylıq məzuniyyətə gəlmişdi. Məzuniyyətdə olsa da, fikri hərbi hissədə idi. Tez-tez telefonla komandiri ilə danışırdı. Sentyabrın 26-sı səhər vaxtı bizimlə sağollaşıb maşına mindi. Daha sonra nə fikirləşdisə, maşından düşüb geri qayıtdı. Anası ilə, mənimlə görüşüb yola düşdü. Nə bilərdik ki, bu sonuncu görüş idi... Bir ata olaraq övladımı itirmək çox ağırdır. Lakin fəxr edirəm ki, Samid kimi qəhrəman övladım olub. İndi hər kəs onun qəhrəmanlığından danışır".

Şəhidin həyat yoldaşı Nübar Əsgərova bildirir ki, Samidlə sonuncu dəfə sentyabrın 30-u səhər saatlarında əlaqə saxlayıb: "Zəng edib uşağı soruşdu. Dedi narahat olmayın, hər şey yaxşıdır. Oktyabrın 1-i axşam saatlarında şəhid xəbəri gəldi... Samidin şəhid olmasına hələ də inana bilmirəm. Gözləyirəm, elə bilirəm ki, hansısa təlimə gedib, bir gün qayıdıb gələcək...".

Nübar xanım söyləyir ki, atası Samidin xatirəsinə bulaq inşa etdirib. İndi bu bulaq Neftçala sakinlərinin ziyarətgahına çevrilib.

Qeyd edək ki, 2015-ci ildə ailə həyatı quran Samidin Kənan adlı bir övladı Vətənə əmanət qalıb. Ailəsi Samidin nəfəsini, qoxusunu məhz balaca Kənandan alır...

Samid Əsgərov oktyabrın 3-də Neftçala rayon Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# "İslam irsimizi tanıyaq": Təzəpir məscidi

Mədəniyyət Nazirliyinin "İslam irsimizi tanıyaq" layihəsi çərçivəsində təqdim olunan növbəti videomaterial Bakıdakı Təzəpir məscidi haqqındadır.




Təzəpir məscidi Hacı Nabat xanım Aşurbəyova tərəfindən 1905-1915-ci illərdə inşa etdirilib. Nabat xanım tikiləcək məscidin memarının azərbaycanlı olmasına xüsusi əhəmiyyət verib. Bu məqsədlə Peterburqda təhsil almış ilk azərbaycanlı memar, əslən Şamaxıdan olan Zivər bəy Əhmədbəyovu dəvət edərək ona böyük miqdarda pul verib, İstanbula və ərəb ölkələrinə göndərib. Ezamiyyətin məqsədi bu ölkələrin məşhur məscidlərinin memarlığı ilə tanış olmaq idi. Zivər bəy Əhmədbəyovun Təzəpir məscidinin layihəsinə dair ideyası da belə yaranıb.

SSRİ dövründə bir çox dini abidələr, ibadət məkanları müxtəlif təyinatlı müəssisələrə çevrilmişdi. 1934-cü ildən Təzəpir məscidi çay fabriki, yay kinoteatrı, anbar və s. kimi istifadə edilib. Sonralar Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi bərpa olunub və məscid fəaliyyətini davam etdirib.

Eyni zamanda möhtəşəm memarlıq abidəsi olan məscid təkcə Azərbaycanın deyil, bütün Qafqazın dini mərkəzi hesab olunur. Qafqaz Müsəlmanları İdarəsi burada yerləşir.

2005-ci ildə Prezident İlham Əliyevin göstərişi əsasında məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması layihəsi hazırlanıb, 2007-2009-cu illərdə məscid əsaslı şəkildə təmir olunub.

"İslam irsimizi tanıyaq" layihəsində Təzəpir məscidi haqqında videomaterialı bu linkdə izləmək mümkündür:

https://youtu.be/-OTuc2fqyFA

# Görkəmli ədib, Cümhuriyyətin ilk elçisi

XX əsrin birinci yarısında Azərbaycan ədəbi, ictimai-siyasi fikrində görkəmli yazıçı-publisist, maarifçi, tərcüməçi, diplomat Yusif Vəzir Çəmənzəminlinin məxsusi yeri var. Mürəkkəb ictimai-siyasi proseslərin şahidi olan, bəzən də mərkəzində dayanan ədib bütün bunları zəngin yaradıcılığında yüksək sənətkarlıqla ifadə edib.



Yusif Məşədi Mirbaba Mirabdulla oğlu Vəzirov 12 sentyabr 1887-ci ildə Azərbaycanın Şuşa şəhərində anadan olub. İlk təhsilini "Kar Xəlifə" ləqəbi ilə tanınan Molla Mehdinin məktəbində alır. Burada fars dilini öyrənir, eyni zamanda Ağdamın Muradbəyli kəndindəki rus məktəbində bir il oxuyur. 1896-cı ildə Şuşa realnı məktəbinə daxil olur. Erkən çağlardan poeziyaya maraq göstərən Yusif 1904-cü ildə həyatdan şikayət tərzində rus dilində "Jaloba" adlı ilk şeirini qələmə alır.

Araşdırmalarda qeyd edilir ki, hələ məktəbli ikən əmisi oğlu Mirhəsən Vəzirovla birlikdə rus dilində "Fokusnik" adlı yazısı ilə aylıq yumoristik jurnal çıxarır. 1905-ci ilin yayında erməni millətçiləri Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Şuşada da yerli azərbaycanlı əhaliyə qarşı vəhşiliklər törədirdilər. Erməni daşnakların zülmü üzündən Vəzirovlar ailəsi ata-baba yurdundan didərgin düşərək Aşqabada (Türkmənistan) pənah aparırlar. Yusif Şuşada təhsilini yarımçıq buraxmaq məcburiyyətində qalır. Təhsilini Bakı realnı məktəbində davam etdirir. O, 1907-ci ildə "Şahqulunun xeyir işi" adlı hekayəsini yazır.

Yusif Vəzir 1909-cu ildə məktəbi bitirir. Sənədlərini Sankt-Peterburq Mülki Mühəndislər İnstitutuna versə də, sonra fikrini dəyişir və Kiyevdəki Müqəddəs Vladimir adına İmperator Universitetinin Hüquq fakültəsinə qəbul olunur. O, təhsillə yanaşı ədəbi yaradıcılığını da davam etdirir. Vaxtilə ehtiyac üzündən Cənubi Azərbaycanın Çəmənzəminli kəndindən gəlib Şuşada onların ailəsi ilə bir həyətdə yaşayan soydaşlarının şərəfinə özünə "Çəmənzəminli" təxəllüsü götürür. Tələbələrin həmyerlilər cəmiyyətinin xeyriyyə, mədəni-maarif tədbirlərində və tələbə nəşriyyat heyətinin işlərində fəal iştirak edir. Nəşriyyat heyətinin buraxdığı üç kitabdan biri onun "Məlikməmməd" kitabı idi.

Kiyev mühiti Yusif Vəzirin dünyagörüşünün formalaşmasına, ədəbi yaradıcılığının zənginləşməsinə böyük təsir göstərir. Onun 1912-ci ildə Kiyevdə "Yeddi hekayə", 1913-cü ildə isə "Həyat səhifələri", "Arvadlarımızın halı", "Qanlı göz yaşları", "Ana və analıq" kitabları işıq üzü görür.



1915-ci ildə universiteti bitirən Yusif Vəzir fəal şəkildə ictimai-siyasi proseslərə qoşulur. Ukraynanın milli azadlıq hərəkatına qatılır. Eyni zamanda Müsavat Partiyasının üzvü olduğu üçün azərbaycanlı tələbələri ətrafına toplayır. Türk Ədəmi Mərkəziyyə Firqəsini – Müsavatın Kiyev şöbəsini yaradır. Çəmənzəminli bu dövrdə "Azərbaycanın muxtariyyəti", "Biz kimik və istədiyimiz nədir?" kitablarını yazır. Krımda nəşr edilən "Millət" qəzetində "Azərbaycan və azərbaycanlılar" məqaləsini dərc etdirir. "Bizim məqsədimiz və amalımız Azərbaycanımızdır" deyən ədib müstəqil Azərbaycan ideyasını ilk irəli sürənlərdən olub.

Y.V.Çəmənzəminli 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını ürəkdən alqışlayır. Bakıya qayıdır və "Azərbaycan" qəzetində "Xarici siyasətimiz", "Milli və mədəni işlərimiz" sərlövhəli silsilə məqalələrlə çıxış edir. Cümhuriyyət hökumətinin ilk yığıncaqlarından birində Türkiyədə Azərbaycanın səfirliyinin açılması təşəbbüsünü irəli sürür. 1919-cu ildə Türkiyədə Azərbaycan Səfirliyi yaradılır. Baş nazir Nəsib bəy Yusifbəylinin təklifi ilə Y.V.Çəmənzəminli Türkiyəyə səfir göndərilir. O, İstanbulda diplomatik fəaliyyəti ilə yanaşı, ədəbi yaradıcılıqla da məşğul olur. "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi-coğrafi və iqtisadi Azərbaycan" adlı kitabları işıq üzü görür.

1920-ci il aprelin 28-də ölkəmiz Rusiya tərəfindən işğal edilir. Çətin duruma düşən Yusif Vəzir Türkiyədən Parisdə təhsil alan kiçik qardaşı Mirinin (Mirabdulla) yanına gedir. Ağır xəstəliyə tutulan Miri 1924-cü ildə vəfat edir. Y.V.Çəmənzəminli Azərbaycana qayıdır, 1926-cı ildə sovet vətəndaşlığına qəbul olunur. "Bakı işçisi" nəşriyyatında şöbə redaktoru işləyir, Azərbaycan Dövlət Universitetinin (BDU) Şərqşünaslıq fakültəsində rus dilindən dərs deyir.

Çəmənzəminli Azərbaycan nəsrində öz cığırı olan ədiblərdəndir. Onun "Millətpərəstlər", "Vətən", "Toy", "Borclu", "Ağ buxaqda qara xal", "Mərsiyəxan", "Xanın qəzəbi", "Qumarbazın arvadı" və s. hekayələri ideya-bədii xüsusiyyətlərinə görə qiymətli nümunələrdir.

Görkəmli ədib daha çox üç romanı – "Studentlər", "Qızlar bulağı" və "Qan içində" əsərləri ilə məşhurdur. "Studentlər" əsəri müəllifin Kiyevdə tələbəlik illərini əks etdirir. Yazıçının ən maraqlı əsərlərindən olan "Qızlar bulağı"nın mövzusu uzaq keçmişimizdən götürülüb. Əsərdə qədim ailə şəkillərinin təsvir və şərhinə geniş yer verilib. Müəllif müharibəni insanın səadət axtarışına və irəliləyişinə böyük təhlükə kimi göstərir.

"Qan içində" ("İki od arasında") tarixi romanında təsvir edilən hadisələrin mərkəzində Qarabağ xanlığı, onun ictimai-siyasi, iqtisadi və mədəni həyatı ilə bağlı məsələlər durur. Qarabağ xanlığı XVIII əsrin ikinci yarısında çevik bir siyasət yürüdərək öz müstəqilliyini saxlamağa çalışır. Ancaq həmin vaxt xanlıq Türkiyə, Rusiya və İran saraylarını da ciddi məşğul edir. Əsərdə qaldırılan məsələlər bir xanlığın yox, bütün Azərbaycanın problemidir...

Tərcümə sahəsində də qələmini sınayan Y.V.Çəmənzəminli L.N.Tolstoyun "Dirilmə", İ.S.Turgenevin "Xam torpaq", "A.S.Neverovun "Daşkənd çörəkli şəhərdir", N.V.Qoqolun "Köhnə dünya mülkədarları", B.A.Lavrenyevin "Ulduz rəngi", "Qırx birinci", "Külək", L.N.Seyfulinanın "Qanunpozanlar" əsərlərini rus dilindən, V.Hüqonun bir neçə əsərini isə fransız dilindən Azərbaycan dilinə tərcümə edib.

Filologiya elmləri doktoru, professor Tofiq Hüseynoğlu araşdırmasında yazır: "Y.V.Çəmənzəminlinin ədəbi-bədii nəsri kimi, dramaturji, publisist, elmi-nəzəri əsərləri də olduqca maraqlıdır. Onun "Həzrəti-Şəhriyar" komediyası, "Altunsaç" ssenarisi, ideya-məzmun və bədii-estetik gözəlliklərini bu günə qədər qoruyub saxlayıb. Zaman böyük yazıçının bədii nəsrində olduğu kimi, bu əsərlərin də təravətini qətiyyən soldura bilməyib. Bu sözlər Y.V.Çəmənzəminlinin "Ana və analıq", "Arvadlarımızın halı" kimi publisistik və "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" kimi elmi əsərlərinə də aiddir...".

30-cu illərin repressiyası digər cümhuriyyətçilər kimi, Yusif Vəzirdən də yan keçmir. O, 1937-ci ildə Azərbaycan Yazıçılar İttifaqının üzvlüyündən çıxarılır. 1938-ci ildə Özbəkistana gedir. Urgənc şəhərindəki Pedaqoji İnstitutda baş müəllim, eyni zamanda institut kitabxanasına müdir təyin olunur. 25 yanvar 1940-cı ildə həbs edilərək Bakıya gətirilir. 3 iyul 1940-cı ildə Rusiyanın Nijni Novqorod vilayətindəki həbs düşərgəsinə göndərilir. 3 yanvar 1943-cü ildə həbs düşərgəsində vəfat edir. Betluqa çayının sahilindəki qəbiristanlıqda dəfn olunur. 1956-cı ildə bir çox repressiya qurbanları kimi ona da bəraət verilir.

**Savalan FƏRƏCOV**

# Onlarla animasiya filmini balacalara sevdirmişdi...

Onun adı çəkiləndə, istər-istəməz, bir anda böyük şair-dramaturqumuz, mütəfəkkir Hüseyn Cavid assosiasiya olunur. Ancaq o, Cavid əfəndi kimi söz sənətkarı deyil, rəng şairi idi. Bu il 16 iyulda, 70 yaşında dünyasını dəyişən rəssam-animator Hüseyn Cavid İsmayılovdan bəhs edirik.



11 sentyabr 1951-ci ildə Bakıda anadan olan rəssama dahi şairin adının verilməsi atasının repressiya qurbanı olması ilə bağlıdır. Ailəsinin dediyinə görə, rəssamın atası Hüseyn Cavidlə birgə həbsdə olub və şairin xatirəsini əziz tutduğu üçün oğluna bu adı qoyub.

"Azərbaycanfilm"də və "Azanfilm" studiyasında çalışan Hüseyn Cavid İsmayılov ilk dəfə 1971-ci ildə Abdulla Şaiqin eyniadlı mənzum nağılı əsasında ekranlaşdırılan "Tülkü həccə gedir" animasiya filmində ikinci rəssam kimi debüt edib. Film gənc rəssamın yaradıcılığında böyük rol oynayır, onun yeni-yeni animasiya filmlərində işləməsinə vəsilə olur.

1977-ci ildə o, Əli Kərimin eyniadlı şeiri əsasında mətnsiz çəkilən "Daş" animasiya filminin ikinci rəssamı olur. Dünya xalqlarını müharibələrin qadağan edilməsi, dünyada sülhün bərqərar olması uğrunda həmrəyliyə çağıran kinolent fəlsəfi fikirlər üzərində qurulub.

Ümumiyyətlə, Hüseyn Cavid İsmayılovun yaradıcılığında fəlsəfi qat özünü aydın göstərir. Onun 1990-cı ildə rəssamı olduğu, Azərbaycan xalq nağıllarının motivlərindən istifadə olunaraq çəkilən "Güzgü" filmində həyat güzgüsündə xeyir və şər qüvvələrin qarşı-qarşıya durmasından bəhs edilir. Xeyir baş verə biləcək bəlanın qarşısını alır...

H.Cavid İsmayılovun ikinci rəssam, multiplikasiya rəssamı, dekor rəssamı, fon rəssamı kimi çalışdığı "Cırtdanın yeni sərgüzəşti" (1973), "Dınqıl, sazım, dınqıl" (1976), "Xoruz" (1977), "Toplan və kölgəsi" (1977), "Sonrakı peşmançılıq" (1978), "Arzunu yarat" (1979), "Toral və Zəri" (1979), "Meşəyə insan gəlir" (1980), "Cırtdan-pəhləvan haqqında" (1981), "Uşaq və külək" (1982), "Uçan zürafə" (1983), "Sehrli naxışlar" (1984), "Balaca çoban" (1985), "Talada ev" (1986), "Lovğa fil balası" (1987) və s. ekran işləri həm mövzu-mündəricəsinə görə, həm də maraqlı bədii tərtibatı ilə balaca tamaşaçıların marağına səbəb olub.

Allah rəhmət eləsin.

**LALƏ**

# Aşıq Ələsgərin 200 illiyi münasibətilə metodiki vəsait hazırlanıb

Respublika Gənclər Kitabxanası böyük söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə silsilə layihələr həyata keçirir. Kitabxananın hazırladığı "Ustad el aşığı" metodik vəsaiti bu qəbildən növbəti layihədir.




Ölkəmizdə fəaliyyət göstərən kitabxanaların əməkdaşları üçün nəzərdə tutulan vəsaitdə Aşıq Ələsgərin həyat və yaradıcılığı haqqında geniş məlumat verilib, Azərbaycan ədəbiyyatının görkəmli simalarının ustad haqqında fikirlər yer alıb. Həmçinin Azərbaycanda el sənətinə göstərilən qayğının bariz nümunəsi olan rəsmi sənədlər diqqətə çatdırılır.

Metodiki vəsaitdə sənətkarın 200 illik yubileyi çərçivəsində kitabxanalarda keçiriləcək tədbirlər haqqında tövsiyələr də yer alıb, o cümlədən Aşıq Ələsgər irsinin kitabxanalarda təbliği mövzusuna geniş diqqət ayrılıb. Vəsaitdə Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə hazırlana biləcək "biblioqrafik icmal"ın əsasında aşıq yaradıcılığına həsr olunmuş bir sıra kitabların annotasiyaları da təqdim edilib.

"Ustad el aşığı" metodik vəsaiti Respublika Gənclər Kitabxanasının saytında yerləşdirilib:

https://ryl.az/files/ustad_el_ashigi.pdf

## Nizami sözündən incilər

# Dövranla düz gəlsən, dövran sənindir...

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

*Həyatda doğru insan gərək olar insana,*
*Layiq dostdan əl üzmə, əgər*
*getsən hər yana.*

**("Sirlər xəzinəsi")**



*Əziyyət eyləsən, cəfa görərsən,*
*Mehribanlıq etsən, səfa sürərsən.*

**("Xosrov və Şirin")**

*Bu dünya səsiylə səsləşənindir,*
*Dövranla düz gəlsən, dövran sənindir.*

**("Leyli və Məcnun")**

*Yatma qoca kimi bu yolda, aman!*
*Zalımdan özünü qoru hər zaman.*

**("Yeddi gözəl")**

*Bərk daşlar içində gizlənər gövhər,*
*Gövhər çətinliklə əldə edilər.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

# Peşəkarlıq nümunəsi

Mübariz sənət meydanında fədakarlar, ustadlar qalib olur, milyonların qəlbinə yol tapır, yaddaşlarda yaşayırlar. Respublikanın Xalq artisti, Azərbaycan teatrının və kinosunun inkişafında mühüm xidmətləri olan Siyavuş Aslan (1935–2013) da ömrünü sənətə bağlayan, yaradıcılığı, cəfakeşliyi fonunda seçdiyi məsləyini yüksək səviyyədə tamaşaçıya sevdirən sənətkarlarımızdandır. Anadan olmasının 86-cı ildönümündə sənətkarın xatirəsini kino fəaliyyəti fonunda yad edəcəyik.



Komik, faciə və dramatik rolların mahir ifaçısı olan Siyavuş Aslanın sənətə vurğunluğu hələ 12 yaşında getdiyi dram dərnəyində görkəmli aktyor Ağadadaş Qurbanovdan sənət dərsi aldığı illərdən başlayıb. Yaradıcılıq prinsiplərini əsasən Azərbaycan Dövlət Musiqili Komediya Teatrında reallaşdıran ustad sənətkar kinorejissorların da diqqətini cəlb edib. "Azərbaycanfilm"in istehsal etdiyi 30-a yaxın bədii filmdə, "Mozalan" süjetlərində müxtəlif xarakterli maraqlı obrazlar yaradıb.

Aktyor kinoda ilk dəfə "Romeo mənim qonşumdur" (1963) musiqili kinokomediyasında Səməd obrazını yaradır. Film kinokamera qarşısında sərbəst yaradıcılıq nümayiş etdirmə bacarığını təsdiqləyən aktyorun taleyinə uğur qatır. Həmin ildə ekranlara çıxan "Əhməd haradadır?" kinokomediyasında çəkilən (Ramiz) gənc aktyor kiçikplanlı rolun baməzə, tənbəl, bəzi məqamlarda isə mərd, xoşagələn xüsusiyyətlərini səciyyəvi planlarla xarakterizə edir. O, dəqiq və improvizə xüsusiyyətli plastika, replika və dialoqlar sayəsində rolun daxili mənini açır, komik situasiyaların məna və məzmununu aydın, rəvan, vəziyyət komediyasına uyğun şəkildə şərh edir. Beləliklə, böyük istedada malik aktyorun fərqli yanaşma və təqdimatı peşəkar kino heyətinin, tamaşaçıların diqqətindən yayınmır, Siyavuş Aslan imzası kino titrlərinin sevinclə oxunan peşəkarlıq nümunəsi kimi qəbul edilir.

Siyavuş Aslanın "Ulduz" kinokomediyasında yaratdığı Şubay obrazı isə bilavasitə filmin ideya-məzmununun açılmasına, hadisələrin məzmununun cilalanmasına xidmət edir. Həmin illərdə Musiqili Komediya Teatrında anşlaqla qarşılanan eyniadlı tamaşanın ekran variantına uğur qatan aktyorun tərəf-müqabili, Əməkdar artist Suğra Bağırzadə yaxın keçmişi sevgi hissi ilə xatırlayır: "Mən valideynlərimlə teatra çox gedirdim. Siyavuş Aslanı da Musiqili Komediya Teatrının səhnəsində görmüşdüm. Onunla ilk dəfə "Ulduz" filminin sınaq çəkilişində təmasda oldum. Bu mənim üçün böyük xoşbəxtlik idi. Sevinirdim ki, belə məşhur aktyorla birgə çəkiləcəyəm. Həmin vaxtlar mən 9-cu sinifdə oxuyurdum. O, çox gözəl bir tərəf-müqabil idi. Çəkilişlər gedən vaxtı biz Astarada mehmanxanada qalırdıq. Siyavuşun necə böyük nüfuza malik olduğunu Astara camaatının ona olan münasibətindən başa düşdüm. İnsanlar hər gün ona görə çəkilişlərə baxmağa gəlir, onunla görüşüb söhbət edirdilər. Xalq onu çox sevirdi, hörmət edirdi.

Siyavuş çox savadlı aktyor idi. Tərəf-müqabili kimi mənə çox kömək edirdi. Baxmayaraq ki, bu, kinoda ikinci filmim (ondan öncə "Yollar və küçələrlə" filmində məktəbli roluna çəkilmişdim) idi, o mənə kamera qarşısında tərəf-müqabili ilə özümü aparmağı, düzgün danışmağı öyrədirdi. Bir gün əvvəldən məşqləri edirdik, ertəsi günü çəkilirdik. Çəkilişlər gec bitəndə isə gecəni mütləq məşq edir, ertəsi günü çəkilişə hazır gəlirdik. Filmin rejissoru Ağarza Quliyev onunla çox məşq etmirdi. Buna heç gərək də yox idi. Çünki Siyavuş həmin illərdə artıq tanınmış aktyor idi. Mən həmişə onu minnətdarlıq hissi ilə xatırlayıram. Çünki mənə çox gözəl tərəf-müqabil olub."

Həyat hadisələrini ümumiləşdirmək kinonun, personajları tipikləşdirmək isə onun cəfakeşlərinin vəzifəsidir. Sənətkarın parlaq yaradıcılığında müxtəlif dövrlərin real şəraitini təhlil edən ekran obrazlarından Qurban "Yol əhvalatı", Hacı Kamyab "Evlənmək istəyirəm", Əflatun "Cin mikrorayonda", Hacı Həsənağa "O dünyadan salam", Fərəcov "Yuxu", Hacı Qara "Hacı Qara" və digər rolları aktyorun məharətlə canlandırdığı tipik insan surətləridir.

Əməkdar mədəniyyət işçisi, bir çox filmlərin direktoru, ikinci rejissoru işləmiş Nadir Əliyev aktyorun "Bəyin oğurlanması" filmindəki obrazından bəhs edərkən maraqlı məqamları diqqətə çatdırdı: "Kinokomediyadakı film direktoru obrazının prototipi mənəm. Siyavuşun əlində gəzdirdiyi çanta da mənim çantamdır. Çəkiliş vaxtı həmişə çantamı ona verəndə bərk-bərk tapşırırdım ki, Siyavuş, sən Allah, muğayat ol, içində sənədlər var.

Film direktorlarının kinoda əməyi az olmasa da, bu obraz kinoda az oynanılıb, bu peşəyə az diqqət yetirilib. Filmin rejissorlarına minnətdaram ki, bu filmdə operator, işıqçı, qrim ustası və digər obrazlarla yanaşı, film direktoru rolunu da canlandırdılar. Çəkilişləri kənardan izləyirdim. Siyavuş Aslan rolun gizli ştrixlərini olduqca məharətlə yaratdı. Çox adam onu komik aktyor kimi qəbul edir. Ancaq o, ciddi adam idi. Kinostudiyaya gələndə, çəkiliş meydançasında da olanda hamı özünü yığışdırırdı, ciddi vəziyyət yaranırdı. Biz heç vaxt fikirləşməmişik ki, komik aktyordur, onunla zarafat etmək olar. Xeyr, heç vaxt belə olmayıb. O, ekranda, tamaşada komik rollar ifa etsə də, kamera qarşısında bütünlüklə dəyişirdi. Bu da onun istedadından, bacarığından xəbər verirdi".

Bəli, peşəkarlıq nümunəsi olduğu üçün də Siyavuş Aslanı bədii kinoda, "Mozalan" satirik kinosüjetində və televiziya tamaşalarında görəndə ciddi sənətdən söhbət getdiyini anlayır, kadrlara diqqət kəsilir, hadisələrin mahiyyətinin, ciddiliyinin fərqinə varırdıq. Aktyorun bir çox televiziya tamaşasında ("Adı sənin, dadı mənim", "Sabiqlər", "Yaşıl eynəkli adam", "Evləri köndələn yar" və s.) yaratdığı xarakterik obrazlar müəyyən həyat hadisələrinin reallığını, məntiqini şərh edən personajlardır.

Xalq artisti, tanınmış televiziya rejissoru Ramiz Həsənoğlu aktyorla iş birliyini böyük məmnunluq hissi ilə xatırladı: "Şadam ki, Siyavuş Aslanla işləmək xoşbəxtliyi mənə nəsib olub. Onunla bir neçə televiziya tamaşasında bir yerdə çalışdım və necə böyük istedada malik olduğunu gördüm. Aktyor var ki, gərək ona hər şeyi izah edəsən. Amma Siyavuş müəllim elə deyildi. Ona rolun xarakterini deyən kimi fantaziyası başlayırdı çalışmağa. Müxtəlif priyomlara (yaxşı mənada), tapıntılara üz tuturdu. Bu mənada onun tayı-bərabəri yox idi. Həmişə onu böyük məhəbbət və məmnunluq hissi ilə yada salıram. Çünki rejissor üçün belə bir aktyorla işləmək böyük xoşbəxtlikdir".

Müxtəlif zamanların inikası olan ekran əsərləri içərisində Siyavuş Aslana daha çox komik situasiyaları yaradan və yaxud davranış, düşüncə tərzi baxımından gülüşdoğuran obrazlar həvalə olunub. Bu kimi ekran personajlarının aktyorun ifasında ironik, baməzə replikalarla, maraqlı üslublarla təhlil olunduğunu görürük. Bu isə sənət bilicisinin fərdi intuisiyasının, təfəkkürünün məhsulu kimi hadisələrə, janrın təbiətinə uyğun yanaşmasının, gülməli vəziyyətləri, gülüş doğuracaq cəhətləri dəqiq yanaşma və ştrixlərlə göstərməsinin nəticəsidir. Dramaturgiyadan irəli gələn xarakterlər və "vəziyyətlər komediyası"nın ustasını tamaşaçı bu mənada komik hadisələrin mənbəyi, həmçinin şərhçisi və tənqidçisi kimi qəbul edir, sevir.

Rol müxtəlifliyi fonunda yaradıcılıq imkanını daha geniş səpkidə bəyan etmək imkanı əldə edən aktyor ekran obrazlarının təfsirində mühüm nailiyyətlər qazanır. Onunla iki filmdə tərəf-müqabil olan Əməkdar artist Ötkəm İsgəndərovun dediklərindən: "Siyavuş Aslanla tərəf-müqabil olmaq mənə nəsib olduğu üçün özümü xoşbəxt aktyorlardan hesab edirəm. Uşaqlıqdan onun komik kino rollarını izləmişdim. Amma ağlıma gəlməzdi ki, nə vaxtsa onunla tərəf-müqabil olacağam. "Əzablı yollar" və "Cin mikrorayonda" filmlərində birlikdə çəkildik. Həmişə çəkilişdə onu görəndə böyük fəxarət hissi keçirirdim. O, heç vaxt özünü çəkiliş meydançasında böyük aparmırdı, kimsəyə də yuxarıdan aşağı baxmırdı. Görəndə ki gənc aktyorlardan kimsə sıxılır, deyirdi ki, "darıxma, sıxılma, kinodur də, yaxşı olacaq". Təmkini ilə, böyüklüyü ilə rahat ortam yaradırdı. Yadıma gəlir, "Əzablı yollar" filmində div rollarını ifa edən Xalq artistləri Eldəniz Zeynalovu, Siyavuş Aslanı və Yaşar Nurini qrimləmək uzun vaxt aparırdı. Qrim rəssamı Volodya Şikini Ukraynadan dəvət etmişdilər. Onlar həmişə gileylənirdilər ki, əsasən qulağı yapışdıranda çox bezirik. Sonra da əlavə edirdilər ki, işimizdir də, neyləmək olar, dözməliyik.

"Cin mikrorayonda" filminə çəkiləndə də tərəf-müqabil kimi Siyavuş müəllimdən böyük stimul alırdım. Onun qapını açmağı, cavab almadan özünü içəri salmağı, "bəyəm sizdə su gəlir?" deməyi istər-istəməz məndə bir aktyor, bir tamaşaçı kimi gülüş doğururdu. Ancaq tərəf-müqabil kimi mənə çox enerji ötürürdü. Vadar edirdi ki, onun səviyyəsində oynayım. İstedadlı və improvizator aktyor, arayıb-axtaran, yaradıcı bir adam idi. Filmdə parkda çəkilən səhnədə səslənən "88 nömrəli evlər idarəsində insanlara səadət paylayanam, hansı ki, onların öz əlindədir. Nə əkərsən, onu da biçərsən. Nə tökərsən aşına, o da çıxar qaşığına" və başqa sözlər onun improvizələri idi. Səmimi təqdimatı ilə də yaddaqalan obraz yaratdı. Mehriban, qayğıkeş insan, daim axtarışda olan sənətkar idi...".

**Şəhla ƏMİRLİ**
**kinoşünas**



## Xatirə təqvimi

**11–14 sentyabr**

### Azərbaycan

**11 sentyabr 1913** – Kinorejissor, operator, Xalq artisti Muxtar Baba oğlu Dadaşov (1913 – 7.5.1998) anadan olub. "Qanun naminə", "Bakıda küləklər əsir" və s. filmlərə quruluş verib. Sənədli və bədii filmlərin ("Yeni horizont", "Arşın mal alan") operatoru olub.

**11 sentyabr 2001** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (15.3.1914 – 2001) vəfat edib. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**12 sentyabr 1887** – Görkəmli yazıçı Yusif Vəzir Çəmənzəminli (1887 – 3.1.1943) Şuşada doğulub. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbulda səfiri olub, sonra mühacirətdə yaşayıb, 1926-cı ildə Azərbaycana qayıdıb. 1940-cı ildə həbs olunub, Rusiyanın Nijni Novqorod vilayətində həbs düşərgəsində vəfat edib. "İki od arasında" ("Qan içində") tarixi romanının, "Qızlar bulağı", "Bir cavanın dəftəri" və s. əsərlərin müəllifidir.

**12 sentyabr 1921** – Şair, dramaturq Novruz Gəncəli (Novruz İsmayıl oğlu Sadıqov; 1921 – 19.10.1995) anadan olub. C.Bayronun şeirlərini, B.Brextin "Kuraj ana və onun uşaqları" pyesini Azərbaycan dilinə çevirib.

**12 sentyabr 1960** – Əməkdar artist Süleyman Məşədi İsmayıl oğlu Tağızadə (13.4.1909 – 1960) vəfat edib. Akademik Milli Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**12 sentyabr 2001** – Yazıçı, tərcüməçi Manaf Fərəc oğlu Süleymanov (3.3.1912 – 2001) vəfat edib. Köhnə Bakı haqqında "Eşitdiklərim, oxuduqlarım və gördüklərim" adlı tarixi-ensiklopedik kitabın, "Dalğalar qoynunda", "Fırtına", "Zirvələr", "Yerin sirri" və s. romanların müəllifidir.

**12 sentyabr 2004** – Əməkdar mədəniyyət işçisi Turan Cavid (Turan Hüseyn Cavid qızı Rasizadə; 2.10.1923 – 2004) vəfat edib. C.Cabbarlı adına Dövlət Teatr Muzeyinin, H.Cavidin Bakıdakı ev-muzeyinin direktoru işləyib.

**12 sentyabr 2008** – Bakıda dahi özbək şairi Əlişir Nəvainin abidəsinin açılışı keçirilib. Mərasimdə Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və İslam Kərimov iştirak ediblər.

**13 sentyabr 1893** – Əməkdar artist, opera müğənnisi Əli Əbdül oğlu Zülalov (1893-1963) Şuşada anadan olub.

**13 sentyabr 1933** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (1933 – 9.5.2019) Bakıda doğulub. "Məhəbbət əfsanəsi" baleti, "Dalğalar" operettası, "Füzuli", "Vətən", "Metamorfozlar" simfonik poemaları, 8 simfoniya və s. əsərlərin müəllifidir. Filmlərə ("Sehrli xalat", "Axırıncı aşırım"), tamaşalara musiqi yazıb. Bakı Musiqi Akademiyasının professoru olub.

**13 sentyabr 1969** – Xalq rəssamı İsmayıl Hüseyn oğlu Axundov (15.4.1907 – 1969) vəfat edib. Azərbaycan Rəssamlar İttifaqının ilk sədri olub.

**14 sentyabr 1880** – Yazıçı İbrahim Mehdi bəy oğlu Musabəyov (1880-1942) Qəbələdə anadan olub. Yazıçının "Neft və milyonlar səltənətində" povesti əsasında 1916-cı ildə Azərbaycanın ilk tammetrajlı bədii filmi çəkilib. Qazaxıstanın Karaqanda şəhərində sürgündə vəfat edib.

**14 sentyabr 1911** – Şair, dramaturq, ədəbiyyatşünas Müzəffər Qasım oğlu Nəsirli (1911-1980) Naxçıvan MR Şahbuz rayonunun Sələsüz kəndində anadan olub.

**14 sentyabr 1939** – Yazıçı-dramaturq Aslan Qəhrəman oğlu Qəhrəmanlı (1939 – 19.1.2014) Ağstafa rayonunun Yenigün kəndində doğulub. Televiziyada ekranlaşdırılmış "Səni axtarıram", "Bağışla" və "Səndən xəbərsiz" pyeslərinin, povest və hekayələrin müəllifidir.

**14 sentyabr 1939** – Əməkdar artist, vokal ifaçısı İsmayıl Sadıq oğlu Ələkbərov (1939-2021) Bakıda doğulub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı muğam bölməsinin solisti olub.

**14 sentyabr 1941** – Əməkdar incəsənət xadimi, kinorejissor Teymur Bəkir oğlu Bəkirzadə (1941-21.09.1996) Bakıda doğulub. "Azərbaycanfilm" kinostudiyasında sənədli və bədii filmlərə ("Rəqiblər", "Yol əhvalatı") quruluş verib.

**14 sentyabr 1949** – Əməkdar artist Sona Qədir qızı Mirzəyeva (1949-27.08.1985) Bakıda doğulub. İrəvan Azərbaycan Dram, Naxçıvan Musiqili Dram teatrlarının aktrisası olub.

**14 sentyabr 1992** – Xalq şairi Hüseyn Arif (Hüseynzadə Hüseyn Camal oğlu; 15.6.1924 – 1992) vəfat edib. Azərbaycan Aşıqlar Birliyinin sədri olub.

**14 sentyabr 1992** – Əməkdar artist, vokal ifaçısı (bariton) Əli Həsən oğlu Haqverdiyev (29.7.1939 –1992) vəfat edib. Azərbaycan Opera və Balet Teatrının solisti olub, filmlərdə çəkilib.

**14 sentyabr 2017** – Əməkdar incəsənət xadimi, ustad saz ifaçısı, aşıq Ədalət Məmmədəli oğlu Nəsibov (27.1.1939 – 2017) vəfat edib.

### Dünya

**11 sentyabr 1862** – Amerika yazıçısı, novella janrının ustası O` Henri (William Sydney Porter; 1862-1910) anadan olub. Əsərləri: "Dörd milyon", "Yanan lampa", "Taleyin yolları" hekayələr toplusu, "Krallar və kələm" romanı və s.

**11 sentyabr 1865** – Latviya şairi və dramaturqu Yan Raynis (əsl soyadı Pliekşans; 1865-1929) anadan olub. Kitabları: "Tufan səpini", "Son və başlanğıc", "Evə".

**11 sentyabr 1894** – Ukrayna kinorejissoru, SSRİ Xalq artisti Aleksandr Dovjenko (1894-1956) anadan olub. Filmləri: "Arsenal", "Torpaq", "Aeroqrad" və s.

**11 sentyabr 1885** – İngilis yazıçısı David Herbert Lourens (David Herbert Lawrence; 1885-1930) anadan olub. Psixoloji romanları ilə məşhurlaşıb: "Göy qurşağı", "Vurğun qadınlar", "İtkin qız", "Ledi Çatterleyin məşuqu".

**11 sentyabr 1903** – Alman filosofu və musiqişünası Teodor Adorno (Theodor Ludwig Wiesengrund-Adorno; 1903-1969) anadan olub.

**11 sentyabr 1914** – Görkəmli türk maarifçisi, mütəfəkkir İsmayıl Qaspıralı (Gasprinski; 8.3.1851 – 1914) vəfat edib. Türk dünyasının maariflənməsində rol oynamış "Tərcüman" qəzetinin naşiri olub.

**11 sentyabr 1937** – Rusiya müğənnisi, SSRİ Xalq artisti İosif Davıdoviç Kobzon (1937-2018) anadan olub.

**12 sentyabr 1921** – Polyak satirik yazıçısı Stanislav Lem (Stanislaw Lem; 1921-2006) anadan olub. Əsərləri: "Solyaris", "Səmanın səsi", "Yerdə sülh", "Aldebarandan müdaxilə" və s.

**13 sentyabr 1874** – Avstriya bəstəkarı Arnold Şönberq (Arnold Franz Walter Schoenberg; 1874-1951) anadan olub. Musiqidə ekspressionizmin nümayəndəsi, "Moisey və Aaron" operası, "İntizar" monodramı və s. əsərlərin müəllifidir.

**13 sentyabr 1894** – İngilis yazıçısı və dramaturqu Con Boynton Pristli (John Boynton Priestley; 1894-1984) anadan olub. Əsərləri: "Mehriban dostlar", "Mələk küçəsi", "Cənnət guşəsi" (pyeslər), "Qretlidə qaranlıq" (roman) və s.

**13 sentyabr 1905** – Fransız əsilli Amerika aktrisası, "Oskar" laureatı Klodet Kolber (Claudette Colbert – Lily Claudette Chauchoin; 1905-1996) anadan olub.

**14 sentyabr 1321** – İtalyan şairi Dante Aligyeri (Dante Alighieri; 15.5.1265 – 1321) vəfat edib. İntibah ədəbiyyatının şah əsərlərindən olan "İlahi komediya" poemasının müəllifidir. Axirət dünyasına səyahəti təsvir edən poema üç hissədən ("Cəhənnəm", "Əraf", "Cənnət") ibarətdir.

**14 sentyabr 1618** – Holland əsilli ingilis rəssamı Piter Leli (Peter Lely - Pieter van der Faes; 1618-1680) anadan olub.

**14 sentyabr 1898** – Rus aktyoru, SSRİ Xalq artisti Mark Prudkin (1898-1994) anadan olub. Filmləri: "Karamazov qardaşları", "On iki stul" (1976) və s.

**Hazırladı: Vüqar ORXAN**

№68 (1845)
10 sentyabr 2021
www.medeniyyet.az

# "Arşın mal alan" yenidən Çin səhnəsində



Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası növbəti dəfə Çin səhnəsindədir. Sentyabrın 16-da Lanfan şəhərindəki İpək Yolu Beynəlxalq İncəsənət Mərkəzində operetta konsert versiyasında təqdim olunacaq.

Üzeyir Hacıbəylinin (1885–1948) anadan olmasının 136-cı ildönümünə və 18 sentyabr – Milli Musiqi Gününə həsr olunan konsert Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Çin Xalq Respublikasındakı səfirliyimiz və Tiencin Şəhər Bələdiyyəsinin dəstəyi ilə hazırlanır.

Layihənin bədii rəhbəri – İpək Yolu Mədəniyyət Birliyinin Prezidenti Klaudia Yanq (Malayziya), baş məsləhətçisi və koordinatoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyev, baş menecer Yan Linyan, dirijor Sun Cinkaydır, opera üzrə kastinq direktoru Li Saofey və Lu Şendir. Tamaşa Tiencin Mahnı və Rəqs Opera Teatrı truppasının ifasında təqdim olunacaq.

Qeyd edək ki, "Arşın mal alan" operettası Çində ilk dəfə 1959-cu ildə, növbəti dəfə isə 2010-cu ildə Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluşunda səhnəyə qoyulub.



Üzeyir Hacıbəylinin 1913-cü ildə yazdığı operetta indiyədək müxtəlif ölkələrdə və dillərdə tamaşaya qoyulub. 2013-cü ildə "Arşın mal alan"ın 100 illiyi UNESCO-da qeyd olunub.

# Azərbaycanlı rejissorun filmi Kazan festivalında

VII Kazan Beynəlxalq Müsəlman Filmləri Festivalında rejissor Rüfət Həsənovun "Daxildəki ada" bədii filminin müsabiqədənkənar təqdimatı olub.

Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtında təşkil olunan ənənəvi festival bu il 5–10 sentyabr tarixində keçirilir. "Daxildəki ada" filmi ölkəmizi festivalın "Türk dünyası" bölməsində təmsil edir.

Filmin "Rodina" kinoteatrında baş tutan nümayişindən sonra əsas rollardan birinin ifaçısı Xalq artisti Vidadi Həsənov tamaşaçıların suallarını cavablandırıb.



Mədəniyyət Nazirliyinin sifarişi ilə çəkilən, "Azərbaycanfilm", "Debüt" studiyası, "Arizona Productions", "Coyote Cinema" və "Mandarin Agency"nin birgə istehsalı olan filmin qəhrəmanı tanınmış şahmat qrossmeysteridir. O özünü kəşf etmək məqsədilə gizlicə bir adaya yola düşür...

Filmin ssenari müəllifi Rüfət Həsənov, quruluşçu operatoru Orxan Abbasov, quruluşçu rəssamı Elturan Məmmədov, bəstəkarları Katya Yonder və Fərhad Fərzəli, səs rejissoru Teymur Kərimov, ikinci rejissoru Kamran Ağabalayev, icraçı prodüseri Nadir Əliyevdir. Əsas rolları Orxan Ata, Vidadi Həsənov, Qurban İsmayılov, Rafiq Əzimov və Elvin Adıgözəl ifa edirlər.

Film 2020-ci ildə Sarayevo Film Festivalında "Ən yaxşı rejissor" nominasiyası üzrə mükafata layiq görülüb.

# Türkiyədə 7500 il əvvələ aid tikililər aşkarlanıb



Türkiyənin Kahramanmaraş vilayətindəki "Domuztepe Höyüğü" adlı qədim yaşayış yerində 7500 il əvvələ aid olduğu ehtimal edilən tikililər aşkarlanıb. Qədim yaşayış yerində 1995–2006-cı illərdə Mançester və Kaliforniya universitetlərindən arxeoloqların iştirakı ilə qazıntılar aparılmışdı.

Arxeoloq Halil Tekinin başçılığı altında davam edən qazıntılar zamanı Şumerlərdən əvvəlki dövrə aid olduğu müəyyən edilən tarixi binalar üzə çıxıb. Qazıntılar zamanı 22 hektar ərazini əhatə edən yaşayış yerindən qədim saxsı qablar, vulkanik və cilalanmış şüşə alətləri, cilalanmış daşlar tapılıb.

Burada tapılan artefaktların bir çoxu Kahramanmaraş Arxeologiya Muzeyində nümayiş olunur.

# Napoleonun papağı hərracda

## İlkin qiyməti 200 min funt-sterlinqdir

Fransa imperatoru və sərkərdəsi Napoleon Bonaparta aid papaq sentyabrın 27-də Londonda keçiriləcək hərraca çıxarılacaq. Satışa çıxarılmazdan öncə tarixi əşya imperatorun Parisdəki evmuzeyi – "Bonhams"da sərgilənəcək.



Hazırkı sahibi – "Bonhams Europe"nin direktoru Simon Kotl imperatora aid rəsm əsərlərində mütəmadi təsvir olunan papağı illər öncə kiçik bir alman muzeyində keçirilən hərracda əldə etdiyini bildirib.

Onun sözlərinə görə, papağın Napoleon Bonaparta aid olduğunu bilmirmiş. Bir neçə müddət sonra papağı gözdən keçirdikdən sonra onun üzərində Napoleona aid ola biləcək yazıları və digər özəllikləri görüb. Papaq imperatorun digər papaqlarının ölçüsünə və yaşına uyğun gəlib. Bundan sonra əşyanın Napoleona məxsusluğundan şübhələnən muzey direktoru onun üzərində daha ciddi araşdırmaya qərar verib.

Elektron mikroskop da daxil olmaqla, müxtəlif üsullardan istifadə etməklə əşya üzərində geniş tədqiqat aparılıb. Papağın içərisindən tapılan beş ədəd saç telindən ikisi DNT testindən keçirilib. Alınan nəticələr Napoleonun genetik kodlarıyla üst-üstə düşəndən sonra papağın imperatora məxsus olması iddiaları qətiləşib.

Öncə 150-200 min funt-sterlinq qiymət qoyulan papağın dəyərinin bundan sonra dəfələrlə artacağı şübhə doğurmur. Çünki indiyə qədər Napoleona aid əşyalar hərraclarda milyonlarla dollara satılıb.

Bu papağın indiyə qədər satılanlardan başqa bir özəlliyi var. Belə ki, imperatorun nəslindən olan şəxslər əvvəllər hərraca çıxarılan papaqların guya müharibələr vaxtı döyüş meydanlarındakı əsgərlərin gətirdiklərini iddia edirdilərsə, sözügedən baş geyimi Napoleonun saçı tapılan yeganə papaqdır.

**CAVİD**

# Şəhriyarın xatirəsinə "Poeziya günü"

Böyük şair Məhəmmədhüseyn Şəhriyarın (1906–1988) vəfatı günü (18 sentyabr) İranda "Fars dili və poeziya günü" kimi qeyd olunur. Həm doğma Azərbaycan dilində, həm də fars dilində poetik incilər yaratmış şairin xatirəsinə həsr edilən tədbirlər bu il Şəhriyarın dəfn olunduğu Təbriz başda olmaqla digər şəhərlərdə də keçiriləcək.



Bu barədə İranın Mədəniyyət və İslam İrşad Nazirliyinin nümayəndəsi Qasım Nazimi məlumat verib. O, nəzərə çatdırıb ki, tədbirlərə Azərbaycan və Rusiyadan mədəniyyət nümayəndələrinin qatılması gözlənilir.

# "Qarabağ Azərbaycandır!" kolleksiyası Stokholm moda sərgisində

Dördüncü dəfə keçirilən Stokholm Beynəlxalq Moda Sərgisində (Stockholm International Fashion Fair) Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilovanın "Qarabağ Azərbaycandır!" kolleksiyası videoformatda təqdim edilib.




Təqdimatdan əvvəl Gülnarə Xəlilova qonaqları salamlayaraq kolleksiyanın Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi şərəfinə yaradıldığını söyləyib. Onun sözlərinə görə, kolleksiyadakı hər bir obraz işğaldan azad edilmiş şəhərlərimizə həsr olunub.

Bundan əvvəl Gülnarə Xəlilovanın kolleksiyaları Türkiyə, Rusiya, Çin, Avstriya, Rumıniya, Böyük Britaniya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, ABŞ, Bolqarıstan və digər ölkələrdə moda həftələrində və beynəlxalq tədbirlərdə təqdim edilib.

Qeyd edək ki, moda sərgisi çərçivəsində İsveç Milli Muzeyində və "Volvo Studio Stockholm"da 20-dən çox ölkədən dizaynerlərin kolleksiyaları təqdim olunub.

# Ölkəmiz ABŞ-da beynəlxalq yemək festivalında təmsil olunub

ABŞ-ın Şimali Karolina ştatının Roli şəhərində fəaliyyət göstərən Azərbaycan Dostluq Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə ölkəmiz beynəlxalq yemək festivalında təmsil olunub.




Diaspora İş üzrə Dövlət Komitəsindən bildirilib ki, müxtəlif xalqların mədəniyyətlərinin, adət-ənənələrinin və milli mətbəxlərinin təbliği məqsədilə təşkil edilən festivalda Azərbaycanla yanaşı, İtaliya, Almaniya, Yaponiya, Çin, Kolumbiya, Qırğızıstan, Meksika, Pakistan, Ukrayna – ümumilikdə 26 ölkənin guşəsi qurulub.

Azərbaycan guşəsində ölkəmizin tarixi, mədəniyyəti, turizm potensialı və mətbəxi ilə bağlı ingilis və çex dillərində kitablar, suvenirlər nümayiş etdirilib, milli mətbəx nümunələri təqdim olunub. Azərbaycan Dostluq Təşkilatının rəhbəri, Amerika Azərbaycanlıları Koordinasiya Şurasının üzvü Adika İqbal və digər gənclərimiz yerli sakinlərə və qonaqlara ölkəmizin mədəniyyəti və mətbəxi barədə ətraflı məlumat veriblər. Guşəmizlə tanış olan ziyarətçilər Azərbaycan mətbəxinə xüsusi maraq göstəriblər.

Festival çərçivəsində ölkələrin milli rəqsləri də nümayiş etdirilib. Adika İqbalın rəhbərliyi ilə yaradılan "Qarabağ" rəqs qrupunun ifa etdiyi Azərbaycan rəqsini izləyicilər rəğbətlə qarşılayıblar.

# Rəqəmsal uçurumu necə aradan qaldırmalı?

## UNESCO: "COVİD-19 böhranı təhsil prosesini görünməmiş miqyasda pozub"

Əksər ölkələrdə yeni tədris ilinin başlandığı sentyabr ayı dünya təqvimində təhsil ilə bağlı əlamətdar günlərlə də diqqət çəkir. Məsələn, 8 sentyabr UNESCO tərəfindən "Beynəlxalq Savadlılıq Günü" kimi təsis olunub. 1967-ci ildən qeyd olunan bu günün məqsədi savadlılığın insanlar, icmalar və ümumilikdə cəmiyyət üçün faydasına diqqəti cəlb etməkdir.

UNESCO-nun saytında yer alan məlumata görə, bu il "Beynəlxalq Savadlılıq Günü"nün devizi "İnsana yönəlmiş bərpa naminə savadlılıq: rəqəmsal uçurumu aradan qaldırmaq"dır.

Qeyd olunur ki, COVİD-19 böhranı təhsil prosesini görünməmiş miqyasda pozub. Distant təhsil də daxil olmaqla təhsilin fasiləsizliyinin təmin olunması istiqamətində alternativ yollar tapmaq üçün səylər göstərilsə də, savadlılıq imkanları hamı üçün eyni dərəcədə əlçatan deyil. Üstəlik, distant təhsilə sürətli keçid, infrastruktur və texnologiyadan istifadə bacarığı, həmçinin öyrənmə imkanlarının məhdudlaşdıran elektrik enerjisinə çıxış kimi digər xidmətlərdəki fərqlər baxımından davam edən rəqəmsal uçurumu üzə çıxardı. Vurğulanır ki, 2021-ci ildə Beynəlxalq Savadlılıq Günü, həmçinin pandemiya şəraitində və ondan sonrakı dövrdə savadlılıq bacarıqlarının öyrədilməsi və öyrənilməsinin gələcək üsullarını yenidən düşünmək üçün vəsilə olmalıdır.

Sentyabrın 9-u isə "Təhsilin Hücumdan Müdafiəsi Günü" kimi beynəlxalq təqvimə düşüb.



BMT-nin saytı xəbər verir ki, bu gün hazırda 35 ölkədə 3-18 yaş arasında insanların 75 faizinin yoxsul olmasına, habelə bu uşaqların təhsil almasını təcili dəstəkləməyə ehtiyac olduğuna diqqət çəkir. Eləcə də zorakılığın fəsadları ilə əlaqədar uşaqlardan və onların təhsil almaq bacarığından ötrü narahatlıq ifadə olunur. COVİD-19 pandemiyası ilə əlaqədar müvəqqəti bağlanmış məktəblərin şagirdlərinin ehtiyacları xüsusi diqqət tələb edir.

"Təhsilin Hücumdan Müdafiəsi Günü" BMT Baş Assambleyasının 2020-ci il mayın 28-də qəbul etdiyi qətnamə əsasında təsis edilib. Qətnamədə göstərilir ki, hökumətlər təhsilalanlar, xüsusən həssas durumda olanlar üçün bütün səviyyələrdə inklüziv, ədalətli və keyfiyyətli təhsilin təminінə və bu təhsilin müdafiəsinə görə məsuliyyət daşıyırlar. Sənəddə, həmçinin fövqəladə humanitar vəziyyətlərdə məktəblərin, təhsilalanların və müəllimlərin müdafiəsi, təhsilin əlçatanlığına mane olan hərəkətlərin qarşısının alınması, silahlı münaqişə vəziyyətində təhsilin əlçatan olması üçün bütün mümkün tədbirlərin görülməsinin zəruriliyi vurğulanır.

Xatırladaq ki, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı dövründə 1107 təhsil müəssisəsi və 855 uşaq bağçası tamamilə məhv edilib. 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində 60 məktəb binası dağıntılara məruz qalmışdı. Şəhər və kəndlərə raket zərbələri zamanı öldürülən 100-ə yaxın mülki şəxsdən 10-u şagird olub.

# Gürcüstanda pandemiya ilə əlaqədar cərimələr silinir

## Yeni qanun 245 min nəfərə şamil olunub

Gürcüstan parlamenti pandemiya ilə bağlı vətəndaşlara tətbiq olunan cərimələrin silinməsinə dair qərar qəbul edib. Müvafiq qanun layihəsi hökumət tərəfindən təqdim edilib.

Parlament pandemiya dövründə tətbiq edilmiş məhdudiyyətlərin pozulması ilə əlaqədar haqlarında cinayət işi açılmış vətəndaşların əfvi, həmçinin onlara yazılmış cərimələrin ləğv edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda qəbul edib. Yeni qanuna əsasən, 245 min nəfərdən artıq fiziki və 344 hüquqi şəxsin cərimələri silinib.

Ümumilikdə silinən cərimələrin məbləği 76 milyon lari (təxminən 41 milyon manat) təşkil edir.

Bülbülün Memorial Muzeyinin kollektivi Azərbaycan İstiqlal Muzeyi Elmi ekspozisiya şöbəsinin zal baxıcısı

**Aida Usubəliyevanın**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1684
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.